Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

20
NOYABR
2019-cu il

№ 206 (4104)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANIN «PARTKOMİSSİYASI» SARKİSYANI SORĞU-SUALA ÇAĞIRDI - APREL HADİSƏLƏRİNİN ARAŞDIRILMASINDA ƏSAS MƏQSƏD...

■ səh. 5 ■




## Naxçıvanın təhlükəsizliyi ilə bağlı Prezidentin iqtisadi və hərbi mesajlarının beynəlxalq əhəmiyyəti...

■ səh. 3 ■

Ermənistanda ictimai rəyə hakim kəsilmiş formul - "Xarici investisiyalar, regional layihələr, Qarabağ problemi həll edilmədən nicatımız yoxdur"
■ səh. 9 ■

Faşist erməni Njdenin abidəsi Armavirdə necə peyda olub - Rusiya hakimiyyət orqanları qarşısında sual...
■ səh. 5 ■

Almaniyada sığınacaq almaq xatirinə öz üstünə hətta erməni adı götürən üzdəniraq azərbaycanlılar - rüsvayçı fakt...
■ səh. 6 ■

Gürcüstanda və Azərbaycanda etirazçılara polisin münasibətinə Qərbdən aşkar fərqli yanaşma - Bakıda 19 oktyabrda və 2 noyabrda "qaz bombası" atılsaydı...
■ səh. 4 ■

100-150 il əvvəl ölkədən getmiş məşhur azərbaycanlıların övladları yenidən Azərbaycana qayıdır
■ səh. 13 ■

Naxçıvanın enerji təhlükəsizliyi güvənli həddə - elektrik ixracatçısına necə çevrildi...
■ səh. 11 ■

"AAAF Park" yaşayış kompleksinin işıqla təminatında nə problem yaranıb...
■ səh. 15 ■

"Metakom" MMC-nin direktoru Şövkət Quliyevin 7 milyonluq əmlakına həbs qoyuldu
■ səh. 15 ■



**Azərbaycan da ABŞ-ın qlobal pul köçürmələr sistemindən çıxa bilər - Avropanın, Rusiya və Çinin alternativ sistemləri artıq işləyir...**
■ səh. 8 ■

**Noyabrın 30-da Avropanın qaz təchizatında yeni «Azərbaycan dövrü» başlanacaq...**
■ səh. 7 ■




**Almaniyada mühacir biznesi olayı Müsavat Partiyasını parçalayıb - saxta arayışlar kimin başqanlıq dönəmində verilib...**
■ səh. 6 ■

■ səh. 4 ■
Müsəlman Qətər ağır 2017-ci il olaylarında böyük dəstəyi Türkiyədən gördü, türk düşməni erməni prezident Qətərdə "sevimli şəxsə" çevrilib...



■ səh. 12 ■
Azərbaycanın hərbi məktəblərində təhsil alan əcnəbilərin sayı artır



■ səh. 11 ■
Naxçıvanın özünü taxılla təmin edə bilməsindən çıxan məntiqi sual - Azərbaycanın başqa bölgələri də bunu əldə edə bilərmi...



■ səh. 14 ■
Naxçıvanın büdcəsində yerli gəlirləri artırmaq mümkündürmü?



■ səh. 14 ■
200 min Azərbaycan qadını niyə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərir...





# Prezident İlham Əliyev Pirşağı dəmir yolu stansiyasının açılışını etdi

**Noyabrın 19-da "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Abşeron dairəvi dəmir yolu xəttində aparılmış yenidənqurma işlərindən sonra Pirşağı stansiyasının açılışı olub.**

Prezident İlham Əliyev açılışda iştirak edərək stansiyanın rəmzi açılışını bildirən lenti kəsib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.




## Novruz Məmmədov Azərbaycan Dillər Universitetinə prorektor təyin edildi

**Keçmiş Baş nazir Novruz Məmmədov yeni vəzifəyə təyin olunub.**

"Trend"in məlumatına görə, N.Məmmədov Azərbaycan Dillər Universitetinə (ADU) elmi işlər üzrə prorektor təyin edilib.

## Türkiyə "erməni soyqırımı"nın qondarma olduğunu təsdiq edən sənədləri ABŞ-a təqdim edib

**Türkiyə "erməni soyqırımı"nın qondarma olduğunu təsdiq edən bütün sənədləri ABŞ-a təqdim edib. "Trend"in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

O bildirib ki, bu məsələ ABŞ Prezidenti Donald Trampla bir neçə gün əvvəl baş tutmuş görüşdə müzakirə olunub: "Türkiyə tarixində heç bir "erməni soyqırımı" olmayıb".

# Nazir Vilayət Eyvazov Baş Narkotiklərlə Mübarizə İdarəsinin yeni rəisini kollektivə təqdim etdi

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN-də Baş Narkotiklərlə Mübarizə İdarəsinin yeni rəisi, polis polkovniki İslam Hümbətovu bu qurumun şəxsi heyətinə təqdim edib.**



Polis polkovniki İ.Hümbətovu uzun illər daxili işlər orqanlarında müxtəlif rəhbər vəzifələrdə xidmət etmiş təcrübəli polis zabiti kimi xarakterizə edən general-polkovnik Vilayət Eyvazov baş idarənin əməkdaşlarına müasir dövrün tələb və çağırışları kontekstində xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi üçün konkret tapşırıq və tövsiyələrini verib, qarşıda duran yeni vəzifələrdən danışıb.

Nazir insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən, transmilli mütəşəkkil cinayətkarlığın qlobal xarakter almış ən qorxulu və zərərli növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizənin əhəmiyyətini qeyd edib, bu mübarizənin dövlət siyasəti olmaqla ölkə Prezidentinin daim nəzarətində olduğunu vurğulayıb.

Daxili İşlər naziri V.Eyvazov baş idarənin struktur qurumları arasında qarşılıqlı əlaqələrin effektiv təşkilini, əməkdaşların peşəkarlığının, tapşırılan sahəyə cavabdehliynin artırılmasını, tələbkarlıq və nəzarətin daha da gücləndirilməsini tələb edib. O, narkotiklərin qanunsuz dövriyyəsilə məşğul olan şəxslər barədə əməliyyat məlumatlarının əldə edilməsinin, onların ifşa olunması üçün ixtisaslı əməliyyat tədbirləri hazırlanıb həyata keçirilməsinin, bu sahədə xarici dövlətlərin müvafiq qurumları ilə informasiya və təcrübə mübadiləsinin daha səmərəli qurulmasının vacibliyini diqqətə çatdırıb.

# Siyavuş Novruzov məhkəmə qərarlarının icrası ilə bağlı yeni mexanizm təklif etdi, Əli Hüseynli isə...

**Milli Məclisə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" kifayət qədər sanballı sənəd daxil olub.**

Biz bu məsələni müakirə edərkən ilk növbədə buna konseptual şəkildə baxmalı, daha sonra maddələrlə bağlı təkliflərimizi verməliyik. Qanunun fəlsəfəsi ölkəmizdə bu istiqamətdə aparılan islahatlara uyğundur. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də islahatlar həyata keçirilir. Bu proses gələcəkdə də davamlı olacaq.

"Trend"in məlumatına görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin noyabrın 19-da keçirilən iclasında "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qanununa dəyişikliklərin müzakirəsi zamanı deyib.

O bildirib ki, Azərbaycanda məhkəmə-hüquq sahəsində islahatlar uzun müddətdir ki, həyata keçirilir: "Yeni məhkəmə binalarının tikintisi, onların texniki təchizatı, hakimlərin sayının artırılması, vəkillərin test üsulu ilə seçilməsi və digər işlər həyata keçirilir".

Mülkiyyətin müxtəlif formaları, ailə məişət məsələləri və digər məsələlərlə əlaqədar məhkəmələrə ciddi sənədlərin daxil olduğunu deyən deputat söyləyib ki, onların təhlil edilməsi, sonda obyektiv qərarın çıxarılması üçün hakim məsələlərlə dərindən tanış olmalıdır: "Elə hallar var ki, hansısa bir strukturun qanunu pozması nəticəsində məhkəmə elə qərar çıxarmağa məcbur olur ki, nəticədən narazı qalan tərəflər olur. Misal üçün, əgər bir mənzillə bağlı 4 şikayətçi varsa, onun 1 nəfəri üçün məsələ müsbət həll olunur. Belə olan halda digərləri narazı qalacaq. Elə səbəblər var ki, vaxtında insanlar hüquqi addımlar atmır və nəticədə işlər gəlib məhkəməyə çatır. Belə olan halda, müxtəlif yollar axtarmağa başlayırlar. Əmək müqaviləsi bağlamadan işə qəbul məsələləri ilə bağlı da problemlər bəzən məhkəməyə qədər gəlib çıxır. Bu baxımdan qanundakı məsələlərə kompleks yanaşmalıyıq".

S.Novruzov söyləyib ki, məhkəmə qərarlarının icrası ilə bağlı yeni mexanizm işlənib hazırlanmalıdır: "Qərar qəbul olunduqdan sonra onların icrası yerinə yetirilməlidir. Bu gün çoxlu sayda belə qərarlar var ki, onların icrası yerinə yetirilmir".

Deputat çıxışı zamanı məhkəmələrin ixtisaslaşdırılmasını da təklif edib.

Prezident İlham Əliyevin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında imzaladığı fərmanının icrası ilə bağlı gələcəkdə də yeni böyük paket qanunların təqdim olunması nəzərdə tutulur. Bunu isə sözügedən iclasda parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qanununa dəyişikliklərin müzakirəsi zamanı deyib.

O bildirib ki, dəyişiklik layihələrinin qəbul edilməsi özəl məhkəmə ekspertizası institutunun yaradılmasına rəvac verəcək.

Komitə sədrinin sözlərinə görə, proses iştirakçılarına da alternativ ekspert rəyi almaq üçün səlahiyyət verilir: "Həm təcrübəli özəl mütəxəssislərin cəlb edilməsi yolu ilə, həm də bu sahədə rəqabətin yaranması səbəbindən məhkəmə ekspertizasının keyfiyyətinin yaxşılaşdırılması gözlənilir. Məhkəmə ekspertizasının keçirilməsi müddətinin dəqiqləşdirilməsi nəticəsində bəzi kateqoriyalı işlərə baxılma müddəti də azalacaq".

**Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən MR-in təhlükəsizliyi ilə bağlı vəziyyətlə ətraflı maraqlanıb.**

# Naxçıvanın təhlükəsizliyi ilə bağlı Prezidentin iqtisadi və hərbi mesajlarının beynəlxalq əhəmiyyəti...

## *Elşən Həsənov: "Naxçıvan Azərbaycanın dünyaya açılan çıxış qapısıdır"*




Dövlət başçısı Naxçıvanda təhlükəsizlik tədbirlərinin diqqət mərkəzində saxlandığını, son illər ərzində bu istiqamətdə böyük işlər görüldüyünü, ordu quruculuğu sahəsində böyük inkişaf olduğunu bildirib. "Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir", - deyən Prezident düşmənlə sərhəddə vəziyyət və hərbi potensialın möhkəmləndirilməsi üçün görülməli olan işlərlə maraqlanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri V.Talıbov Muxtar Respublikanın müdafiəsinin təşkili istiqamətində görülən işlər barədə məlumat verərək bildirib ki, Muxtar Respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib, Əlahiddə Ümumqoşun Ordusu yaradılıb: "Alınmış silah-sursatla bu gün Muxtar Respublikanın ordusu da lazımınca təmin olunur. Hazırda Muxtar Respublikada yerləşən birləşmə və hissələrdə qəbul edilmiş planlara uyğun olaraq təlimlər və nəzəri işlər həyata keçirilir. Eyni zamanda, hazırda Muxtar Respublikanın əsgəri məişət komplekslərinin yaxşılaşdırılması sahəsində işlər gedir, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla Muxtar Respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə tam hazırdır".

Dağlıq ərazilərdə yerləşən döyüş postlarının təchizatı barədə məlumat verən V.Talıbov postların hamısına yolların çəkildiyini qeyd edib: "Bəzi postlarımız var ki, onların təminatı avqust-sentyabr aylarında həyata keçirilir. Bütün hamısı ilə əlaqəmiz var, gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilib və xidmətin aparılmasında heç bir problem yoxdur".

Göründüyü kimi, ölkə başçısı Naxçıvanın təhlükəsizliyinə, ordu quruculuğu ilə bağlı vəziyyətinin diqqətdə saxlanmasına böyük önəm verdiyini, bundan sonra da bu istiqamətdə nə lazım olacaqsa dəstək veriləcəyini bəyan edib. Prezidentin məlum görüşdə verdiyi iqtisadi və hərbi mesajlarının nə kimi beynəlxalq əhəmiyyəti var?

*"Ölkə başçısının mesajı həm də həmin bölgənin beynəlxalq əhəmiyyətinə diqqəti yönəltdi"*

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla beynəlxalq əhəmiyyətli ciddi mesajlar verildi: "Bilirsiniz ki, Azərbaycanı istəməyən böyük güclər daim Azərbaycanı Türkiyə ilə təcrid etməyə, ümumi sərhədlərimizin olmamasına çalışıblar. Bu məqsədlə Zəngəzur mahalı ermənilərə verildi və nəticədə Azərbaycanın həm öz parçası olan Naxçıvanla, həm də Türkiyə ilə birbaşa əlaqəsi kəsildi. Ancaq Naxçıvanın mövcudluğu sübut etdi ki, blokada şəraitində olsa da, həmin torpağın varlığı həm bizim, həm də Türk dünyası üçün böyük əhəmiyyətə malikdir. Bəli, bu gün Naxçıvan Türk dünyasını birləşdirən bir inci rolunu oynayır. Türkiyə oranın vasitəsilə Azərbaycanla əlaqələrini birbaşa qura bilir, Azərbaycandan da Orta Asiyadakı türk dövlətlərinə çıxış əldə edir. Bunun əhəmiyyətini dərk edən ermənilər və onlara havadarlıq edənlərin daim Naxçıvanda gözləri olub. Ermənilər hər zaman Naxçıvana qarşı ərazi iddiaları qaldırıblar. Ancaq güclənən Azərbaycan Naxçıvandakı vəziyyəti tam dəyişə bildi. Həmin görüşdə bir daha ordumuza olan diqqət xatırlandı. Artıq Naxçıvanda elə bir güc var ki, biz torpaq itirməkdən qorxmuruq.

**Əksinə, ermənilər hər an deyirlər ki, Azərbaycan Naxçıvandan onların üzərinə həmlə edə bilər. Günnüt əməliyyatı bir daha sübut etdi ki, Naxçıvan əmin əllərdədir, ordunun vəziyyəti ilə bağlı orada heç bir narahatlığa əsas yoxdur. Naxçıvan Azərbaycanın dünyaya açılan çıxış qapısıdır. Oranın bir neçə ölkə ilə sərhədi var. Ölkə başçısının mesajı həm də həmin bölgənin beynəlxalq əhəmiyyətinə diqqəti yönəltdi. Həmin tarixi Azərbaycan torpağı daha da güclənəcək və inkişaf edəcək".**

***Məhəmmədəli QƏRİBLİ***

**Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Bunu Prezident İlham Əliyev Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edərkən deyib.**

# Qafqazda həm Rusiyanın, həm də Azərbaycanın marağında olan böyük hədəf - İlham Əliyevin din xadimləri ilə görüşündən dünyaya daha bir diqqətçəkən mesaj...

## *Arzuxan Əlizadə: "Dinlərarası dialoq formatı hər iki ölkənin maraqlarına uyğun davam etdirilməlidir"*



Ölkə başçısının sözlərinə görə, görüşlər və fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb edir: "Əlbəttə ki, bizim görüşlər və sıx qarşılıqlı əlaqələr çox uğurla inkişaf edən və artıq çoxdan bəri strateji tərəfdaşlıq səviyyəsinə çatmış Rusiya-Azərbaycan münasibətlərinin mühüm amilidir". Dövlət başçısı deyib ki, Rusiya Prezidenti Vladimir Putinlə çoxsaylı görüşləri iki ölkənin dostluq, mehriban qonşuluq əlaqələrinin daha da möhkəmlənməsində çox mühüm rol oynayır: "Bu yaxınlarda - ötən ay mən Rusiya Prezidentinin dəvəti ilə Soçidə "Valday" Diskussiya Klubunun işində iştirak etdim və həmin səfər çərçivəsində Rusiya Prezidenti ilə də görüşümüz oldu. Biz münasibətlərimizin çox geniş gündəliyinə bir daha nəzər saldıq və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etdiyini bir daha gördük. Əlbəttə, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Dəfələrlə dediyimiz kimi, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlərboyu yaşayır, qurur, yaradırlar, memarlıq abidələri yaradırlar və gələcəyə inamla baxırlar. Əlbəttə, hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır". Görünən odur ki, sadalanan məsələlərlə bağlı iki ölkə arasında qarşılıqlı əməkdaşlıq inkişaf edir. Qafqazda çoxşaxəli qarşılıqlı fəaliyyət, əməkdaşlıq hər iki ölkənin maraqlarına uyğundur.

*"Mövcud sabitliyi qoruyub inkişaf etdirmək üçün qarşılıqlı birgə fəaliyyət davamlı olmalıdır"*

Sözügedən məsələni dəyərləndirən AMİP-in baş katibi Arzuxan Əlizadənin fikrincə, sadalanan sahələrdə Rusiya ilə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir: "Nəzərə almaq lazımdır ki, Qafqazın etnik tərkibi çoxşaxəlidir. Xüsusən də Şimali Qafqaz regionu. Şimali Qafqazda çox sayda müxtəlif azsaylı millətlər yaşayır. Bunların böyük hissəsi müsəlmanlardır. Ona görə də bölgədə sabitliyin qorunması hər iki ölkə üçün vacib əhəmiyyət kəsb edir. Sabitlik olmadan regionun sosial-iqtisadi inkişafını təmin etmək, bir sıra irimiqyaslı nəqliyyat və enerji layihələrini həyata keçirmək çətindir. Ona görə də mövcud sabitliyi qoruyub inkişaf etdirmək üçün qarşılıqlı birgə fəaliyyət davamlı olmalıdır. Bütün sahələrdə dialoq olmalıdır. O cümlədən, dinlərarası dialoq formatı hər iki ölkənin maraqlarına uyğun davam etdirilməlidir. Bu kimi təmaslar hər zaman lazımlı əhəmiyyət kəsb edir.

O baxımdan hesab edirəm ki, bundan maksimum səmərəli istifadə etmək lazımdır. Dinlərarası dialoq ümumi işin xeyrinədir. Nəzərə almaq lazımdır ki, Qafqaz çox həssas bir regiondur. Bir sıra geosiyasi maraqlar burada kəsişir".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, neçə gündür qonşu Gürcüstanda vəziyyət gərginləşib. Belə ki, ölkənin paytaxtı Tiflisdə, Batumidə mitinqlər, etiraz aksiyaları keçirilməkdədir. Qeyd edək ki, bir müddət bundan əvvəl Gürcüstan hökuməti, o cümlədən, hakim "Gürcü arzusu" partiyası xalqa proporsional seçki sisteminə keçidlə bağlı vədlər verib.**

# Gürcüstanda və Azərbaycanda etirazçılara polisin münasibətinə Qərbdən aşkar fərqli yanaşma - Bakıda 19 oktyabrda və 2 noyabrda "qaz bombası" atılsaydı...

## *Azər Həsrət: "Bütün bunlar, təbii ki, ikili standartın bariz nümunələrindən biridir"*



Bu vədlər xalqda, eyni zamanda, müxalifətdə ümidlər doğurub və yüksək qiymətləndirilib. Lakin bu günlərdə partiyadan olan bir qrup deputat bu qanuna səs vermədi və layihə rədd edildi. Nəticədə müxalifətçilər ciddi etirazlara başladılar. Proporsional sistemə keçid 2019-cu ilin iyununda Tiflisin mərkəzində baş tutmuş etirazların iştirakçılarının əsas tələblərindən olub. Yay aylarında 3 aya yaxın mitinqlər davam etdi. Müxalifətin bir tələbi var idi, o dövrün daxili işlər naziri Qaxariyanın vəzifədən getməsini tələb edirdi. Sonda Qaxariya Baş nazir oldu. Bununla da siyasi böhran yeni bir forma almış oldu.

Gürcüstan hakimiyyəti isə növbədənkənar parlament seçkilərinin keçirilməsini düşünmür. Bu səbəbdən Tiflisdə xüsusi təyinatlılar Gürcüstan parlamentinin ətrafını etirazçılardan təmizləyib. Etirazlar dağıdılarkan onlara qarşı güc tətbiq edilib və bu özünü açıq formada göstərib. Etirazçılara qarşı su şırnaqlarından, digər vasitələrdən istifadə olunub. Xüsusi təyinatlılar mitinq iştirakçılarının çadırlarını belə ərazidən yığmağa müvəffəq olublar. Qarşıdurma zamanı bir neçə nəfər xəsarət alıb. Diqqətçəkən məqam ondan ibarətdir ki, hökumətin etirazçılara güc tətbiq etməsinə baxmayaraq, Qərbin buna münasibəti çox yumşaq olub. İstər ABŞ, istərsə də Avropa qurumları etirazların zor gücü ilə dağıdılmasına yumşaq tərzdə yanaşıblar. Ancaq bundan fərqli olaraq, 19 oktyabrda Azərbaycanda radikal müxalifətin keçirmək istədiyi qanunsuz aksiyaların qarşısının alınmasına çox sərt münasibət sərgiləndi. Hansı ki, aksiya keçirmək istəyənlər açıq-aşkar polisi provokasiyaya çəkirdilər. Onların bu təxribatlarından sonra qanuna uyğun olaraq müvafiq addımlar atıldı. Ancaq Qərb buna elə sərt münasibət sərgilədi ki, sanki etirazçılar linç edilib.

O baxımdan, Qərbin bu ikili yanaşmasını ekspertlər necə dəyərləndirirlər?

*"Ona görə də Gürcüstanda keçirilən aksiyalara yumşaq yanaşırlar, Azərbaycana gəldikdə isə məsələlər şişirdilir"*

Məsələyə münasibət bildirən ekspert Azər Həsrətin sözlərinə görə, Qərbin etiraz aksiyalarının dağıdılmasına bu cür ikili münasibət sərgiləməsi Azərbaycanla bağlı qərəzin olmağının göstəricisidir: "Məsələ ondadır ki, Gürcüstan ABŞ-la çox yaxın münasibətdədir. Azərbaycan isə müstəqil dövlətdir və heç kəsin çaldığına oynamır. Gürcüstan, daha dəqiq desək, ABŞ-ın arxasınca sürünür. Rusiya ilə bütün körpüləri yandıraraq Birləşmiş Ştatların, bir növ, forpostuna çevriləcək qədər irəli gedib. Ona görə də ABŞ və Avropa İttifaqı aksiyaların zorla dağıdılmasını görməzdən gəldi. Baş verən hadisələrə yumşaq münasibət sərgilədilər. Ancaq Azərbaycan müstəqil siyasət yeritdiyinə görə adi bir məsələni şişirdirlər və bunun ətrafında şou yaradırlar. Ancaq Gürcüstanda nə baş versə belə, Qərb ona demokratiya donu geyindirir. Mitinqlərə münasibətdə bir daha bunu gördük. Azərbaycanda icazəsiz aksiyalar keçirilməzdən əvvəl Qərb təşkilatları dilə-dişə düşmüşdülər, canfəşanlıq edirdilər. Açıqlamalar verib müxtəlif çağırışlar edirdilər. Sanki onlar özləri gəlib burada aksiya keçirməyə hazırlaşırdılar. Halbuki, heç nə baş verməmişdi. Sonradan da piket, mitinq cəhdi olarkən həmin təşkilatlar hazır bəyanatlarını dərhal ictimailəşdirdilər. Yəni aksiya cəhdinin başa çatmasını belə gözləmədən açıqlamalar verməyə başladılar. Bütün bunlar, təbii ki, ikili standartın bariz nümunələrindən biridir. Ona görə də Gürcüstanda keçirilən aksiyalara yumşaq yanaşırlar, Azərbaycana gəldikdə isə məsələlər şişirdilir. Nəticədə qərəzli olaraq sərt mövqe ortaya qoyurlar. Bütün bu qərəzli yanaşmalar Azərbaycan dövlətinin müstəqil siyasət yeritməsindən imtina etməsinə gətirib çıxarmayacaq".

***Vidadi ORDAHALLI***

---

**Qətər Azərbaycan torpaqlarını işğal edən Ermənistanla sıx əlaqələr qurmaqda davam edir. Belə ki, Ermənistan Pezidenti Armen Sarkisyan Qətərə səfər edib. Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan da 2017-ci ildə Qətərdə səfərdə olub. A.Sarkisyan Qətər əmiri ilə müzakirələr apardıqdan sonra bu ölkədə keçirilən innovasiya sammitində iştirak edib.**

# Müsəlman Qətər ağır 2017-ci il olaylarında böyük dəstəyi Türkiyədən gördü, türk düşməni erməni prezident Qətərdə "sevimli şəxsə" çevrilib...

## *Məhəmməd Əsədullazadə: "Qətərin bu siyasəti müsəlman ölkəsi olaraq Türkiyə və Azərbaycanla əlaqələrinə mənfi təsir edə bilər"*



O, Ermənistanın Qətərdə açdığı yeni səfirlik binasında olub. Bununla yanaşı, Qətər Ermənistan vətəndaşları üçün viza tələbini ləğv edib.

Məsələnin qəribə tərəfi həm də odur ki, Qətər Türkiyənin strateji tərəfdaşıdır. Səudiyyə Ərəbistanı ilə Qətər arasında münasibətlər gərginləşəndə Ankara Dohanı dəstəklədi və bununla Ər-Riyadla münasibətləri daha da soyudu. O zaman bir sıra ərəb dövləti bu ölkəyə sanksiya tətbiq etdi. Bu zaman yaranan ərzaq böhranından Qətəri Türkiyə xilas etdi. Digər tətəfdən, Türkiyənin Qətərdə hərbi bazası mövcuddur. Qətərdə onu da bilməmiş deyillər ki, Ermənistan Türkiyəni özünə düşmən sayır. Ancaq bu amil də rəsmi Dohaya İrəvanla siyasi təmaslara diqqətli olmağa kifayət etmir. Bundan başqa, Qətər yoxsul ölkə də deyil ki, deyəsən bu ölkənin Ermənistana ehtiyacı var. Belə olan halda, Qətərin Ermənistana olan sevgisi nə deməkdir?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan son illər Körfəz ölkələri ilə əməkdaşlığı genişləndirmək planına malikdir: "Əsasən Azərbaycanın bu yöndə addımlarından sonra Ermənistan bənzər siyasət həyata keçirdi. Qətərlə bu ölkə arasında siyasi-iqtisadi əlaqələr əsasən Ermənistan tərəfinin təşəbbüsü ilə reallaşır. Təbii ki, Qətərin bu siyasəti müsəlman ölkəsi olaraq Türkiyə və Azərbaycanla əlaqələrinə mənfi təsir edə bilər. Nəzərə almaq lazımdır ki, Qətərə qarşı blokada həyata keçiriləndə ölkəni aclıqdan Türkiyə xilas etdi. Ancaq buna rəğmən, Ermənistan Prezidenti Qətərdə yüksək səviyyədə qarşılanır. Qətərin bu cür siyasət yeritməsi tamamilə yanlışdır. Hazırda Ermənistan Prezidentinin bu ölkəyə səfəri və iqtisadi əməkdaşlıq barədə sazişlərin bağlanması perspektivli olmayacaq. Çünki Ermənistan iqtisadi baxımdan cəlbedici deyil. Sadəcə, Ermənistan çalışır ki, turizmi bu istiqamətdə inkişaf etdirsin.

*"Ermənistan bu ölkə üçün iqtisadi baxımdan cəlbedici deyil"*

Ermənistan çalışır ki, bu ölkələrdən turist cəlb etsin. Qətərin İslam Əməkdaşlığı Təşkilatının üzv ölkəsi olaraq tutduğu mövqe anti-Azərbaycan mövqeyidir. Xarici İşlər Nazirliyi Körfəz ölkələri ilə bağlı yeni əməkdaşlıq strategiyası hazırlamalıdır. Qətər, ümumiyyətlə, ərəb ölkələri ilə yola getmir".

***Vidadi ORDAHALLI***

**Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan 2016-cı ildə baş vermiş Aprel döyüşləri ilə əlaqədar sorğu-sual ediləcək. Erməni KİV-nin verdiyi məlumata görə, bu barədə Ermənistanın "Mənim addımım" parlament fraksiyasının üzvü, Müdafiə və təhlükəsizlik üzrə daimi komissiyanın rəhbəri Andranik Koçaryan bildirib.**

# Paşinyanın "partkomissiyası" Sarkisyanı sorğu-suala çağırdı - Aprel hadisələrinin araşdırılmasında əsas məqsəd...

## *Hatəm Cabbarlı: "Bununla Paşinyan hökuməti siyasi rəqiblərini tam izolyasiyada saxlamağa çalışdığını ortaya qoymuş olur"*



Onun sözlərinə görə, Sarkisyan komissiyaya dəvət olunacaq. Bundan əvvəl isə ona hansı sualların veriləcəyi müəyyən ediləcək: "Biz əvvəlcə sualların tam siyahısını hazırlamalıyıq. Bundan sonra Sarkisyanı komissiyaya dəvət etmək olar".

Qeyd edək ki, işğalçı Ermənistan ordusu Aprel döyüşlərində ağır məğlubiyyətlə üzləşib. O zaman Ermənistanın prezidenti Serj Sarkisyan olub.

Üstündən üç il keçməsinə baxmayaraq, Ermənistanın yeni hökuməti hələ də Aprel hadisələri ilə bağlı nələrisə üzə çıxarmağa çalışır. Bu xüsusda həmin vaxt ölkəyə rəhbərlik etmiş şəxsin də dindirilməyə dəvət olunması maraqlı görünür. Paşinyan hakimiyyəti Aprel hadisələrinin araşdırılmasında hansı məqsədləri güdə bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin bu narahatlığının köklü səbəbləri var: "1994-cü ildə tərəflər arasında atəşkəs elan olunandan sonra, 2016-cı ilin aprel ayına kimi Ermənistanın işğalçılıq siyasətində qırılma nöqtəsi yaşanmamışdı. 2016-cı ilin aprelində baş verənləri biz qırılma nöqtəsi kimi qələmə verə bilərik. Aprel hadisələri yalnız Ermənistan ordusunun zəifliyi və əmrvermə, icraetmə zəncirindəki zəiflikləri üzə çıxarmadı. Bu həm də Ermənistanda hökumətin dəyişməsi və nəticədə Serj Sarkisyanın vəzifəsindən uzaqlaşması ilə nəticələndi.

Mövcud Ermənistan hakimiyyəti daxili siyasətdə öz mövqeyini gücləndirməyə cəhd edir. Köçəryan həbsdə saxlanır. Paşinyan hakimiyyəti üçün növbəti təhlükəli fiqur Serj Sarkisyandır. Onun da başını bir şəkildə qatıb, fəaliyyət sferasını daraltmaq onların başlıca məqsədlərindən biridir. Ermənistan parlamentində "Mənim addımım" blokunun təşəbbüsü ilə gündəmə gətirilən bu məsələ elə Serj Sarkisyana yönəlik düşünülmüş siyasi təzyiq formasıdır. Komissiya sədri deyib ki, hətta ciddi faktlar ortaya çıxarsa, təqsirkarların işləri istintaqa verilə bilər. Bununla Paşinyan hökuməti siyasi rəqiblərini tam izolyasiyada saxlamağa çalışdığını ortaya qoymuş olur. Paşinyan hökuməti bununla həm də daxili ictimai rəydə sosial-iqtisadi problemləri bir az arxa plana keçirmiş olacaq. Bundan sonra komissiya cinayət işinin başlanmasını lazım bilərsə, burda məsuliyyətə cəlb ediləcək ilk şəxs Serj Sarkisyan olacaq. Çünki həmin vaxt ölkənin ali baş komandanı o olub. Bu həmlə ilə Paşinyan Ermənistan generalitetinin bir neçə nüfuzlu şəxsini də zərərsizləşdirə bilər. Önümüzdəki zamanda Paşinyan hakimiyyətinin Aprel kartı ilə özünə sərf edəcək tərzdə oynayacağını görəcəyik".

**Məhəmmədəli QƏRİBLİ**

**Ermənistan dövlət olaraq faşizmi dəstəkləməsini artıq açıq müstəvidə bəyan edir. Hətta iş o yerə çatıb ki, onlar bununla bağlı faşizmlə mübarizənin əsas avanqardı sayılan Rusiyanı da hədələməkdən çəkinmirlər.**

# Faşist erməni Njdenin abidəsi Armavirdə necə peyda olub - Rusiya hakimiyyət orqanları qarşısında sual...

## *Yeganə Hacıyeva: "Təbliğatı bir qədər də genişləndirməklə biz nəyəsə nail ola bilərik"*



Məlum olduğu kimi, Rusiyanın Krasnodar diyarının Armavir şəhərində erməni faşisti Qaregin Njdenin şərəfinə qoyulan xatirə lövhəsi təhqir edilib. Həmin hərəkət Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov tərəfindən törədilib. O, lövhənin üzərinə boya töküb. Bunun ardınca Ermənistanın Moskvadakı səfirliyi etiraz bəyanatı yayaraq, baş vermiş hadisəni "erməni-rus əlaqələrinin ruhuna uyğun gəlməyən vandalist akt və millətlərarası gərginliyə gətirəcək hərəkət" kimi qiymətləndirdi. Ermənistan XİN hətta Armavir şəhər hökumətini baş verən hadisəyə müvafiq qiymət verməyə, hətta deputatı cəzalandırmağa çağırdı.

Maraqlıdır ki, Ermənistan XİN-in etirazına rəsmi Moskva heç bir reaksiya verməyib. Əslində, Rusiyanın bu laqeydliyi ciddi şübhələr doğurur. Rusiya o dövlətdir ki, BMT-yə dünyada faşizmin təbliğ olunmasını qadağan edən qətnamə layihəsi təqdim edib. Rusiya həmin müharibədə milyonlarla övladını itirib, ölkəyə misli görünməmiş səviyyədə ziyan vurulub. Bütün bunların fonunda, Rusiya hökuməti faşistliyinə zərrə qədər də şübhə olmayan Njdeyə aid xatirə lövhəsinin qalmasına necə səbrlə yanaşa bilir? Hətta Ermənistanın əndazəsini aşan açıqlamasına cavab verməməklə Rusiya öz dəyərlərinə, tarixinə hörmətsizlik etmiş olurmu?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiya bu məsələyə bir qədər əvvəl dövlət səviyyəsində münasibət açıqlayıb: "Hətta Rusiya XİN-in bununla bağlı xüsusi hesabatı da yayılıb. Həmin hesabatda Njde məsələsinə də toxunulub. Rusiya Xarici İşlər Nazirliyinin "Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin yayılmasına və irqçiliyin müasir formalarının, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onunla bağlı digər dözümsüzlüklərin artmasına kömək edən digər praktikaların yayılması ilə bağlı vəziyyət haqqında" hesabatı bəzi dünya ölkələrində nasizmin, neonasizmin təzahürlərinin artmasına və İkinci Dünya Müharibəsinin tarixini yenidən yazmağa cəhd göstərilməsinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə yönəlib. Ermənistandakı vəziyyətin təhlili də hesabatda öz yerini tapıb. Rusiya Xarici İşlər Nazirliyi " Ermənistanın keçmiş iqtidar Respublikaçılar Partiyasının Üçüncü reyx ilə əlaqəsi haqqında məlumatlar mövcud olan Q.Njdenin xatirəsinin birmənalı olmayaraq milliyyətçi siyasi qəhrəman kimi əbədiləşdirilməsi üçün addımlar atdığını" qeyd edir, həmçinin, millətçi "Sosna Tsrer" təşkilatının fəaliyyətindən ciddi narahatlıq keçirdiyini bildirirdi. Ancaq, görünür, həmin hesabatda qeyd edilənlər elə kağız üzərində qalıb. Hətta vəziyyət o həddə çatıb ki, ermənilər Njdenin təbliğatını Rusiyanın öz ərazisinə də transfer etməyi, onun xatirəsini anmağı belə bacarıblar. Son hadisələr də göstərdi ki, nədənsə, Rusiya buna susqun mövqe nümayiş etdirir. Prezident İlham Əliyev çox lazımlı yerdə, məhz MDB dövlət başçılarının iclasında Ermənistan Baş naziri Nikol Paşinyanın tutarlı cavabını verdi. Dövlət başçısı iclasda Ermənistanı, sözün həqiqi mənasında, ifşa etdi. Reallıq budur ki, İkinci Dünya Müharibəsi zamanı ermənilərin kifayət qədər ciddi bir hissəsi Almaniya nasistlərinin yanında yer alıb. Bu da o deməkdir ki, həmin dövrdə ermənilər sovetlərin tərkibində olan hər millətə qarşı savaşıblar. Bütün dünyanın faşizmə, terrorizmə qarşı mübarizə apardığı bir dönəmdə İrəvanın mərkəzi küçəsində faşist general Qaregin Njdeyə abidə ucaldılıb. Bu abidənin özü Ermənistanın apardığı təcavüzkar siyasətin ən bariz nümunəsidir. Njde müharibə ərəfəsində erməniləri faşizmə cəlb etməklə məşğul idi. O, Hitler ordusunun tərkibində ayrıca briqada yaradaraq Krım yarımadasının işğalında və Qafqaz uğrunda döyüşlərdə fəal iştirak edib. Bu gün Ermənistan hakimiyyəti Njdeyə abidə qoyaraq dövlət səviyyəsində faşizmə dəstək verdiyini ortaya qoyur. Maraqlıdır ki, bu məsələdə erməni siyasətinin bütün spektri eyni mövqedən çıxış edir və birmənalı olaraq Njdeni müdafiə edir. Rusiyanın öz ərazisində Njdeyə bəslənən sevgiyə biganə yanaşması isə Moskvanın həssas bir məsələ ilə bağlı manevr etdiyini göstərir. Ola bilər ki, bu məsələ Rusiyanın ictimai rəyinə lazımi səviyyədə çatdırılmayıb. Yoxsa, oradakı siyasi qüvvələr hakimiyyəti ciddi addımlar atmağa vadar edə bilər. Biz həm də bu istiqamətdə çalışmalıyıq. Mövzunu əhatə edən rus dilində materialları onların ictimai rəyinə təqdim etməliyik. Bəllidir ki, Rusiyanın daxili ictimai rəyində bu məsələyə həssas münasibət var. Təbliğatı bir qədər də genişləndirməklə biz nəyəsə nail ola bilərik. Bizim səfirlik də Armavirdəki Njde məsələsi ilə bağlı Rusiyanın hakimiyyət dairələrinə mövqeyini bildirməlidir".

**Məhəmmədəli QƏRİBLİ**

**Almaniyada mühacir alveri ilə məşğul olan dəstənin ifşa edilməsi, saxta sənəd hazırlamaqda şübhəli bilinənlərin saxlanması işi getdikcə böyüyür. Alman Polisinin həyata keçirdiyi əməliyyat zamanı saxlanan şəxslər arasında Müsavat Partiyasının bəzi üzvlərinin də olması partiya rəhbərliyi barəsində ciddi ittihamların ortaya çıxmasına səbəb olub.**

# Almaniyada mühacir biznesi olayı Müsavat Partiyasını parçalayıb - saxta arayışlar kimin başqanlıq dönəmində verilib...




Məsələ ondadır ki, Müsavatın mühacir biznesi şəbəkəsinin ifşası partiya daxilində ciddi qarşıdurmaya səbəb olub. Belə ki, vaxtilə partiya rəhbərliyinin qanunsuz fəaliyyətinə qarşı çıxan və bu səbəbdən Arif Hacılının qəzəbinə tuş gələnlər hazırda onun istefasını tələb edirlər. Müsavat başqanının sabiq müavini Yadigar Sadıqlı hesab edir ki, Arif Hacılı və onun ətrafındakı şəxslər birbaşa mühacir biznesinin əsas təşkilatçılarıdır: "Düşünürəm ki, partiyanın rəhbərliyi, Arif Hacılı günahlarını etiraf etməli, məsuliyyəti nəzərə alıb istefa verməlidir".

Digər müsavatçılar da bu biabırçılığa görə A.Hacılını istefaya çağırırlar. Bununla yanaşı, məsələyə fərqli yanaşan partiya təəssübkeşləri də var. Onlar hesab edirlər ki, Müsavat Partiyasının adından saxta arayışların verilməsi əvvəl də mövcud olub. Yəni İsa Qəmbərin başqanlığı dönəmində çoxsaylı saxta arayış verilib. Bu səbəbdən sözügedən məsələdə əsas günahkarlardan biri məhz İsa Qəmbərdir.

## *Məhərrəm Zülfüqarlı: "Saxta arayış məsələsi ilə əlaqədar partiyanın yenidən parçalanması ehtimalı böyükdür"*

Bu arada diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, A.Hacılıya yönələn ittihamlarla bağlı heç bir partiya funksioneri onu sosial şəbəkədə müdafiə etmir. Təkcə A.Hacılının özü barəsində səslənən ittihamlara münasibət bildirir.

Bütün hallarda, saxta arayış məsələsinin bu cür böyüməsi Müsavat Partiyasının parçalanması baxımından nə vəd edir?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, saxta arayış qalmaqalından sonra Müsavat Partiyasının yenidən parçalanması ehtimalı böyükdür: "Zatən, Müsavat Partiyası bir neçə dəfə parçalanıb. Partiyadan gedənlər müxtəlif təşkilatlar yaradıblar. Saxta arayış məsələsi ilə əlaqədar partiyanın yenidən parçalanması ehtimalı böyükdür. Bu səbəbdən siyasətdən gedənlər, başqa partiyalara üz tutanlar olacaq. Çünki bu faktlar Müsavat Partiyası üzvlərinin inamını azaldır. Ümid etdiyi ideologiyaya, şəxslərə olan inamları qırılır. Ona görə də partiyada müxtəlif proseslər baş verə bilər.

*"...cəmiyyətdə düzlükdən, ədalətdən danışan şəxslər bu cür iyrənc hərəkətlə məşğul olublar"*

Çünki bu çox xoşagəlməz haldır ki, cəmiyyətdə düzlükdən, ədalətdən danışan şəxslər bu cür iyrənc hərəkətlə məşğul olublar. Bunu Azərbaycan Polisi aşkar etsəydi, deyərdilər burada siyasi motiv var. Saxta arayış məsələsini Avropa Polisi aşkar edib və beynəlxalq hüquqa zidd olduğuna görə bir neçə nəfər deportasiya edilib. Bütün hallarda, həmin insanların fəaliyyəti araşdırılmalı və günahkarlar cəzalandırılmalıdır".

**Vidadi ORDAHALLI**

---

**Almaniya Polisi tərəfindən aparılan əməliyyatlar nəticəsində Azərbaycan əsilli vətəndaşların saxta mühacir biznesinə görə saxlanması bu mövzunu daha da aktual edib. Hazırda Almaniyada mühacir həyatı yaşayan jurnalist Fərahim İlqaroğlu Azərbaycandan mühacir axını ilə bağlı olduqca ciddi faktlar açıqlayıb.**

# Almaniyada sığınacaq almaq xatirinə öz üstünə hətta erməni adı götürən üzdəniraq azərbaycanlılar - rüsvayçı fakt...

## *İsmayıl Ağayev: "Bu, bir tayfanın, nəslin adına xələl gətirmək deməkdir"*




O bildirib ki, hətta elə soydaşlarımız var ki, özünü erməni adlandıraraq status almaq istəyir: "Son iki-üç ildə Azərbaycandan Almaniyaya "Sumqayıt ermənisi", "Gəncə ermənisi", "Ordubad ermənisi" adı ilə gələn azərbaycanlılar həddən artıq çoxalıb. Təbii ki, onların heç biri erməni deyil və Azərbaycan türküdürlər, heç erməni dilini də bilmirlər".

F.İlqaroğlu bildirib ki, özünü erməni kimi təqdim edən həmin şəxslər müəyyən kurslara gedərək, erməni dilini ibtidai səviyyədə öyrənirlər ki, erməni olduqlarına kimlərisə inandırsınlar:

"Onlar bildirirlər ki, guya erməni olduqlarına görə Azərbaycanda təzyiqə məruz qalırlar. Almaniyada erməni diasporu, Avropanın digər ölkələrində olduğu kimi, burada da çox güclüdür. Həmin azərbaycanlılar külli miqdarda pul xərcləyərək, erməni diasporundan dəstək məktubları alırlar və bu yolla yaşamaq icazəsi əldə edirlər.

Təbii ki, həmin şəxslərin kimlik bilgiləri ilə bağlı məlumatlar səhv olur. Onlar adətən erməni ad və soyadları götürürlər. Milli pasportlarını buradakı miqrasiya idarələrinə təqdim etmirlər ki, onların şəxsiyyətləri müəyyənləşdirilə bilməsin. Həmin şəxslər Almaniyaya normal viza alaraq gəlmirlər, qaçaq yollarla - gəmilər, TIR-lar vasitəsilə gəlirlər ki, ad-soyadları bilinməsin, sənəd istənilməsin, əsl kimlikləri üzə çıxmasın: guya Azərbaycanda təzyiqlərdən "gizli yolla" qaçıblar və sənədlərini də götürməyiblər".

F.İlqaroğlunun sözlərinə görə, Almaniyadan bu şəkildə sığınacaq almağa gələnlərin içində bircə erməni də tapmaq olmur: "Bu məsələni ölkə mətbuatının gündəminə daşımaq lazımdır. Çünki bu heç də adi bir məsələ deyil. Təbii ki, Sumqayıtda, Gəncədə erməni ad-soyadı ilə yaşayan ermənilər var. Ancaq Almaniyaya sığınacaq almağa gələn və özünü erməni kimi təqdim etmək istəyənlərin həmisi azərbaycanlılardır".

Göründüyü kimi, jurnalist olduqca ciddi detallara toxunur. Konkret faktlar əsasında ortaya dəlillər qoyur ki, saxta mühacir adı almaq üçün özünü erməni kimi qələmə verən soydaşlarımız da var. Onların ifşa olunması, yalanlarının üstünün açılması üçün həmin ölkədəki səfirliyimiz, diasporumuz hansı işləri görməlidir?

Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu bizim çox ağrılı yerimizdir: "Bu hal soydaşlarımız arasında kütləvi şəkildə baş vermir. Çox az faizi əhatə edə bilər. Təəssüflər olsun ki, vətəndaşlarımızın arasında hətta özünü də satıb, mühacir olmaq istəyənlər də var. Bu hal bilirsiniz niyə yaşanmağa başlayıb? Əvvəl belə tendensiya vardı ki, ancaq müxalif fikirli adamlara orada sığınacaq verirlər. Son günlər şahidi oldunuz ki, artıq yerli polis bu cinayətlərin üstünü açır. Buna görə də bəzi şəxslər arqumentlərini tam əsaslandırmaq üçün hətta özlərinə erməni adını belə qoyurlar. Artıq o hal gəlib ki, mən ailənin-uşağın yanında kompyuter və ya telefonla xəbərləri izləyə bilmirəm. Haranı açırsan söyüş eşidirsən. Bunlar da bilirsiniz kimdir? Əksəriyyəti Avropada sığınacaq alan şəxslər. Götürək ki, onlar özlərini erməni kimi qələmə verib orada oturum almayıblar. Yaxşı, onların etdiyi hərəkətə hansı adı verə bilərik? Bəyəm onların etdikləri hərəkətin adı özünü erməni kimi qələmə verməkdən yaxşıdır? Hərdən fikirləşirəm ki, bu insanlar belə tərbiyəsiz söyüşləri hardan və necə öyrəniblər? Bunlar özlərini açıb ortaya qoyublar, hamı da görür. Sizin dediyiniz kateqoriya isə özünü erməni kimi gizli qələmə verir. Düşünürlər ki, bunu heç kim bilməyəcək, asanlıqla öz istəklərinə nail olacaqlar. Belə kateqoriyalı adamlarla bağlı ictimai qınaq güclənsə, sizi inandırım ki, bir də ömründə bu addımı atmazlar. Onlar bütün nəsilliklə ora getməyiblər ki... Burda da doğmaları, qohumları var. Təsəvvür edin ki, burda biri bilir ki, qardaşı gedib özünü erməni kimi qələmə verib. Bu, bir tayfanın, nəslin adına xələl gətirmək deməkdir. Bizim diasporumuz, səfirliyimiz həmin ölkələrdə fəal olmalıdır ki, belə faktları aşkarlaya bilsin. Yalnız ictimai qınaqla biz bu halın qarşısını ala bilərik.

*"Cəmiyyətdə çox az adam olar ki, erməni adını üstünə götürməyin ictimailəşməsinə tab gətirə bilsin"*

Cəmiyyətdə çox az adam olar ki, erməni adını üstünə götürməyin ictimailəşməsinə tab gətirə bilsin. Hər yerdə üzləşəcəyi ictimai qınağı bilən şəxslər maksimum bu üsullardan uzaq olmağa çalışacaqlar. İndi görürlər ki, proses gizlin aparıla bilir, ona görə həmin addımları atırlar".

**Məhəmmədəli QƏRİBLİ**

# Noyabrın 30-da Avropanın qaz təchizatında yeni "Azərbaycan dövrü" başlanacaq...

**Hesablamalar göstərir ki. cari ilin ilk on ayında təbii qaz ölkənin ümumi ixracının 11,19 faizini təşkil edib. Ötən il isə bu göstərici 7,57 faiz olmuşdu. Cari ilin sonuna qədər təbii qaz payının ölkənin ümumi ixracında 12 faizi keçməsi, gələn il ərzində isə bu göstəricinin daha böyük rəqəmlə ifadə olunması gözlənilir.**

Çünki məhz gələn ildən etibarən Azərbaycan qazının Avropaya çıxışı başlanır. Bu hal ölkənin Avropa enerji bazarında mövqeyini gücləndirməklə yanaşı, Azərbaycanın təbii qaz satışından böyük miqdarda gəlir əldə etməsi də deməkdir.

Xatırladaq ki, Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində işlər böyük intensivliklə davam edir. Bu fonda o da bəllidir ki, TANAP boru kəmərinin ikinci fazası noyabrın 30-da istifadəyə veriləcək. Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz bildirib ki, Azərbaycan və Türkiyənin iştirakı ilə reallaşdırılan layihələr Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. TANAP da bu layihələrdən biridir. Qeyd edək ki, "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. Bu il boru kəməri ilə qardaş ölkəyə 1,8 milyard kubmetrədək qaz nəql olunub. Türkiyə bu vaxtadək TANAP-la 3 milyard kubmetrdən çox Azərbaycan təbii qazı alıb. Cari ilin sonunadək isə bu həcm 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Türkiyənin "Sabah" qəzeti yazır ki, TANAP boru kəmərinin ikinci fazasının açılışında prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan da iştirak edəcək. Burada onlar "Şahdəniz" qazının alıcıları olan Avropa ölkələrinə "Biz Avropaya qaz verməyə hazırıq" mesajını verəcəklər. Qəzet yazır ki, 2020-ci ildən sonra isə Türkiyə TANAP-dan ildə stabil olaraq 6 milyard kubmetr qaz alacaq. Kəmərlə nəql olunacaq qazın qalan 10 milyard kubmetri isə TAP kəməri ilə Avropaya ötürüləcək. TAP kəmərinin inşası da artıq başa çatmaq üzrədir və Azərbaycan qazı 2020-ci ildən etibarən Avropa bazarına daxil olacaq.

"Sabah" yazır ki, TANAP-ın, ardınca TAP-ın istifadəyə verilməsi ilə Avropa bazarında "Qazprom"a rəqib yaranır və bu da Rusiya qaz nəhənginin bazarına təsir göstərəcək. Rusiya ekspert çevrələrində Azərbaycan qazının Avropa bazarına daxil olmasının "Qazprom"un biznesinə təsirinə dair fərqli mövqelər var. Bir çoxlarına görə, ildə 10 milyard kubmetr Azərbaycan qazının Avropaya daxil olması "Qazprom"un bazarına ciddi təsir göstərməyəcək, çünki həcm azdır. Lakin Azərbaycan qazının gələcəkdə Avropaya ixracının artması da gözlənilən sayılır. Digər tərəfdən, Türkmənistan qazının Azərbaycan üzərindən Avropaya nəqli də gözlənilir. Rusiyalı iqtisadçı ekspert Stanislav Pritçin də xatırladır ki, Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropaya nəqlini nəzərdə tutan "Transxəzər" boru kəməri layihəsinə bütün iştirakçılar böyük maraq göstərir. Onun sözlərinə görə, bu layihənin reallaşdırılmasında ilk növbədə Türkmənistan və Avropa maraqlıdır: "Bu layihə böyük siyasi əhəmiyyət kəsb edir, xüsusilə də Azərbaycanın iştirakı onun regionda və dünyada əhəmiyyətini artırır. Azərbaycan bu layihədə balanslaşdırılmış mövqe nümayiş etdirir və gizlətmir ki, tranzit ölkə qismində çıxış edə bilər. Bununla da Azərbaycan layihəyə qoşulmağa və dəstəkləməyə hazır olduğunu göstərir". Ekspert xatırladıb ki, ötən il Xəzərdə transsərhəd layihələri barədə protokol qəbul edilib və bu sənəd bu cür layihələrin reallaşdırılması məsələsini tənzimləyir: "Bu layihə çərçivəsində ilk növbədə fikirləşmək lazımdır ki, sponsorlar kimdir, çünki bu, ucuz layihə deyil. O cümlədən, türkmən qazının Avropa bazarlarına tədarükünün iqtisadi tərəfləri yaxşı işlənməlidir". Onun fikrincə, Azərbaycanın bu layihəyə qoşulması ölkənin tranzit ölkə qismində regionda və dünyada imicinə müsbət təsir göstərəcək.

Ekspert qeyd edir ki, Azərbaycan yaxın gələcəkdə "Cənub Qaz dəhlizi" ilə "mavi yanacağ"ın əsas təchizatçısı olacaq və burada Rusiya layihələrinə hər hansı rəqabətdən söhbət getmir. Amma məsələ burasındadır ki, Avropa İttifaqının Rusiya ilə qaz məsəəlsində yeni problemləri üzə çıxır. Belə ki, Rusiyanın "Qazprom" dövlət konserninin törəmə müəssisəsi olan "Nordstrim-2" Avropanın ən iri enerji layihələrindən birinin icrasını, yəni "Şimal axını-2" qaz magistralının tikintisini başa çatdırır. Bununla əlaqədar olaraq, Rusiyanın energetika nəhənginin Avropa İttifaqı ərazisində fəaliyyətinin hüququ baxımdan rəsmiləşdirilməsi məsələsi Avropa siyasətinin gündəminə qayıdır.




Məsələ burasındadır ki, "Aİ-nin üçüncü enerji paketi"nə müvafiq olaraq, Aİ ərazisində qaz kəmərləri qaz hasilatçılarına və satıcılarına məxsus olmamalıdır. Brüsselin qaydalarına görə, boruların sahibləri müstəqil şirkətlər olmalıdır. Onların Avropanın qazla təchizində iştirakı bazarın bir əldə cəmləşməsinin qarşısını almalı və müəyyən mənada bazarı liberallaşdırmalıdır.

Avropa Komissiyası bu ilin əvvəlində bazarın demonopolizasiyanı üçüncü ölkələrdən dəniz yolu ilə Avropa İttifaqı ərazisinə çəkilən qaz kəmərlərinə də şamil etmək barədə qərar qəbul edib.

Qəbul edilmiş direktiv məxsusi olaraq Avropanın "Şimal aıxını-2"dən asılılığının qarşısının alınmasına yönəldilib. İndilikdə isə "Qazprom" özü "Şimal axını-2"ni idarə etmək istəyir. Buna isə Avropa razılıq vermir və bu səbəbdən rus qazının Avropaya çatması yenidən ciddi sual altına düşüb. Məhz bu şəraitdə Azərbaycan qazına Avropada maraq artır. Özü də o fonda ki, Avropa Azərbaycan üzərindən türkmən qazını da almaq istəyir. Avropanın bu istəkləri reallaşsa və rus qazı ilə bağlı problem davam etsə, Azərbaycan bu qitənin enerji bazarında daha güclü oyunçu statusu əldə edəcək.

***Tahir TAĞIYEV***

**Məlumdur ki, ABŞ-ın dollardan və qurduğu ödəniş sisitemlərindən iqtisadi təzyiq vasitəsi kimi istifadə etməsindən sonra bir çox ölkələr alternativlərin yaradılması istiqamətində fəal iş aparır. Artıq bir sıra ölkələr bu fonda qarşılıqlı ticarətdə milli valyutalardan, qismən də olsa, istifadəyə start verib.**

# Azərbaycan da ABŞ-ın qlobal pul köçürmələr sistemindən çıxa bilər - Avropanın, Rusiya və Çinin alternativ sistemləri artıq işləyir...



Eyni zamanda, dollara alternativ olaraq avro və yuandan istifadənin həcmi də durmadan artır. Dünya iqtisadiyyatının bir parçası olaraq baş verənlər Azərbaycanda da diqqətlə izlənilir.

Digər tərəfdən o da bəllidir ki, qonşu ölkələr, xüsusən də Rusiya, Türkiyə, İran artıq xeyli müddətdir Azərbaycanla ticarəti milli valyutalar üzərindən aparmağı düşünür. Bu istiqamətdə, əslində müəyyən addımlar da atılıb. Bundan başqa, Rusiya yaratdığı yeni ödəniş sisteminə Azərbaycanın da qoşulmasını istəyir. Xatırladaq ki, bu günlərdə Hindistan, Çin və Rusiya ABŞ tərəfindən sanksiyaların daha da artması ehtimalı qarşısında öz aralarında ticarət əlaqələrini sadələşdirmək üçün SWIFT-ə alternativ olan xüsusi ödəniş sistemi yaratmağı nəzərdə tutur. Rusiyanın SPFS (Sistema Peredachi Finansovıkh Soobsheniy - Maliyyə Məlumatların Ötürmə Sistemi) həmin daxili ödəniş sistemi ilə Çinin CBİBPS (Cross-Border İnter-Bank Payment System) ödəniş sistemi, həmçinin Hindistanın hələlik hazırlanma mərhələsində olan bənzər sistemi birləşdirilməklə Rusiya Mərkəzi Bankı tərəfindən idarə olunacaq vahid sistem yaradılacaq. Həmin üçtərəfli sistem hər üç ölkənin yerli maliyyə qaydalarına uyğun olaraq, ödənişlərin elektron ismarışların mübadiləsi əsasında fəaliyyət göstərəcək. Hazırda Rusiyanın SPFS ödəniş sistemilə iki xarici bank - Belarusun "Belgazprombank" və Qazaxıstanın Avrasiya Bankı çalışır, daha səkkiz xarici bankla müvafiq müqavilə imzalanıb. Rusiya MDB ölkələrinin, o cümlədən Azərbaycaının da bu sistemə qoşulması üçün müvafiq danışıqlar aparır. Hesab edilir ki, bu reallaşsa, SWIFT-ə ciddi rəqib meydana çıxacaq və ABŞ-ın bu sistem vasitəsilə təzyiq imkanları azalacaq. Eyni zamanda bu durum dolların istifadəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxaracaq.

Belə bir vaxtda Avropada da maraqlı proseslər cərəyan etməkdədir. Rusiya və Çinin nümunəsində Vaşinqtonun nəzarətində olmayan ödəmə sistemi yaratmağın real olduğuna əmin olan Avropa bankları burada "Visa" və "Mastercard"ı əvəz etməyə hesablanan işçi adı PEPSI (Pan-European Payment System Initiative) olan layihəyə başlayıb. Əksəriyyəti Fransa bankları və Almaniyanın "Deutsche Bank"ı olmaqla, Avropanın 20 bankı Birləşmiş Ştatların "Visa" və "Mastercard" sistemlərini əvəzləyəcək vahid ödəmə sisteminin yaradılmasını tamamilə mümkün sayır. Məsələ ilə bağlı "RİA Novosti" portalı yazır: "Formal olaraq Avropa İttifaqı müstəqil maliyyə-iqtisadi siyasəti həyata keçirir. Lakin əslində Brüsseldə çox şeyi Kapitoli təpəsində olan əhval-ruhiyyə müəyyənləşdirir. Xarici ticarət sövdələşmələrini dollarla həyata keçirən digər ölkələrlə bağlı vəziyyət də eynilə cürdür.

İlk dəfə avropalılar bununla bağlı çətinliyi 2018-ci ilin ortalarında, rəsmi Vaşinqtonun Tehranla nüvə sazişindən çıxdığı və İran neftinin bütün alıcılarına qarşı sanksiyalar tətbiq edəcəyini bəyan etdiyi vaxt hiss etdilər. Avropa İttifaqı seçim qarşısında qaldı: Amerika sanksiyalarına məruz qalmaq və ya bir gündə 500 min barrel neft idxalından imtina etmək. Vəziyyəti xammala görə hesablaşmaların ABŞ-ın nəzarətində olan SWIFT banklararası ödəmə sistemi vasitəsilə həyata keçirilməsi daha da çətinləşdirirdi. Vaşinqton sistemə girişi blok edə bilərdi ki, bu da indiki vəziyyətdə biznesin dayanması anlamına gəlirdi.

Rəsmi Vaşinqtonun Brüsseli istənilən məsələ ilə bağlı (istər ticarət müharibəsi, istər Rusiyadan alınan sıxılmış qaza görə) SWIFT sistemindən çıxarmaqla hədələməyə davam edəcəyini anlayan avropalı maliyyəçilər öz banklararası ödəmə sistemi - INSTEX-nin yaradıldığını bəyan etdilər.

Bununla da, Avropa artıq SPFS və CİPS sistemləri olan Rusiya və Çinin yolu ilə getdi. Yeri gəlmişkən, yaxın vaxtlarda Rusiya və Çinin ödəmə sistemləri birləşdiriləcək, daha sonra isə ona hazırda hazırlanma mərhələsində olan Hindistan ödəmə sistemi də qoşulacaq.

Rusiya, Çin və Hindistan bu barədə Braziliyada baş tutan BRİCS sammitində razılığa gəliblər. Ehtimal olunur ki, birləşdirilmiş sistem şəbəkə keçidi modeli üzrə işləyəcək. Belə ki, bu halda ödəmələr haqqında məlumatlar hər bir ölkənin maliyyə sisteminə uyğun olaraq kodlaşdırılacaq. Aqressiv Amerika maliyyə sistemindən azad olmaqla yanaşı, bu cür yanaşma ticarətin dollarsızlaşdırılmasına da yardım edir: məhsullara görə milli valyutalarda ödənişin həyata keçirilməsi üçün geniş imkanlar yaranır.

Bunlara paralel olaraq yaradılan PEPSI Avropa şirkətlərinə İran və Vaşinqton üçün arzu olunmayan digər ölkələrlə təhlükəsiz formada ticarət əməliyyatları aparmağa imkan verəcək. Amerika ödəmə sistemləri isə Avropa İttifaqı ölkələrinin vətəndaşlarının nəyə və nə qədər pul xərclələməri barədə məlumatlardan da məhrum olacaq. Bu isə, öz növbəsində, ABŞ şirkətlərinin Avropa bazarına ekspansiya imkanlarını zəiflədəcək. Yeni ödəmə sistemi Rusiya üçün də səmərəlidir: ödəmə sistemlərinin qarşılıqlı şəkildə inteqrasiyasına dair Avropa Mərkəzi Bankı ilə razılaşmaq daha asan olacaq. İstisna deyil ki, "Mir" kartı Avropa İttifaqı ölkələrində qəbul olunacaq.

Avropa maliyyə bazarını Birləşmiş Ştatların təsirindən çıxarmaq üçün mümkün alətlərdən biri də rəqəmsal valyutalardır. Noyabr ayının əvvəlində "Deutsche Bank", "Credit Suisse" və "Commerzbank" da daxil olduğu Almaniya Banklar Assosiasiyası avronun rəqəmsal analoqunun yaradılmasını və onu PEPSI ödəmə sisteminə inteqrasiya etməyi təklif edib. Almanlar bu təşəbbüsün kimə qarşı istiqamətləndiyini gizləmir. Assosiasiyadan bildirilir: "Bu, ABŞ tərəfindən olan rəqabət təzyiqinə dözməyin yeganə yoludur". Xatırladaq: hələ avqustun sonunda İngiltərə Bankının rəhbəri Mark Karni bəyan edib ki, ehtiyat valyuta kimi dünyanın dollardan asılılığı olduqca təhlükəlidir və onu qlobal məhsullar səbətinə əsaslanan yeni rəqəmsal valyuta ilə əvəzləməyi təklif edib: "Çoxqütblü dünyada bizə çoxqütblü valyuta lazımdır". Karni əlavə edib ki, hazırda çox ölkələr Amerika iqtisadiyyatının tərəddüdlərindən asılıdır. Bundan əlavə, qlobal maliyyə sisteminin balansı pozulub.

Çünki bəzi ölkələr mənfi faiz dərəcələrinə keçib, ABŞ da daxil olmaqla digər ölkələr isə faiz dərəcəsini 0-dan yuxarıda saxlayır. İngiltərə Bankının rəhbərinin fikrincə, sistemi balansa qaytarmaq üçün yalnız yeni valyuta lazımdır: "Yaxşı olar ki, yeni valyuta rəqəmsal olsun". Beləliklə, bu qeyd edilənlərdən aydın görünür ki, dünya maliyyə sektorunda yeni vəziyyət yaranır və Avropada barəsində bəhs edilən ödəniş sistemləri yaradılsa, ona Azərbaycan da qoşulacaq. Çünki Azərbaycanın əsas ticarət tərəfdaşı məhz Avropa İttifaqı, eləcə də Rusiyadır. Onların yaratdığı ödəniş sisteminə ölkəmizin qoşulması isə qarşılıqlı ödənişlərin daha asan həyata keçrilməsinə gətirib çıxaracaq.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistanda ictimai rəyə hakim kəsilmiş formul - "Xarici investisiyalar, regional layihələr, Qarabağ problemi həll edilmədən nicatımız yoxdur"



**Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasının Ermənistanın sosial-iqtisadi çöküşünü daha sürətli hala gətirməsi birmənalı həqiqətdir və proseslərin bu səpkidə inkişafı artıq erməni cəmiyyətində də ciddi narazılıq yaradır. Burada indi çoxları açıq şəkildə bəyan edir ki, baş nazir Nikol Paşinyanın populizm üzərində qurulan siyasəti Ermənistanı üzləşdiyi problemlərdən xilas edə bilmir.**

"Vernatun" ictimai-siyasi klubunun təsisçisi Vazgen Manukyan bildirir ki, artıq Qarabağ münaqişəsinin hansı formada həllini tapacağı erməni cəmiyyətini maraqlandırmır: "Ermənistan cəmiyyəti üçün əsas olan budur ki, Qarabağ məsələsi hansısa yolla həll edilirsə edilsin, onlar da rahat yaşasın. Cəmiyyətə bu mövqe möhkəmlənir". Ermənistanın "politik.am" saytı da yazır ki, münaqişənin hansı formada həllinin sadə ermənilər üçün artıq bir əhəmiyyəti yoxdur. Əslində isə Ermənistan üçün yeganə alternativ Qarabağ problemini həll edərək, Türkiyə və Azərbaycanla sərhədi açmaqdır. Sayt Gürcüstan və İranda olan nümayişlər fonunda bu məsələnin Ermənistan üçün önəmli hala gəldiyini bildirib: "Bu sadə olmayan hadisələr Ermənistan üçün güclü zərbə ola bilər. Belə ki, Ermənistan üçün xarici dünya ilə quru əlaqəsi bu iki dövlətlə həyata keçirilir və bu ölkələrdəki daxili qeyri-stabillik bu əlaqəni kəsəcək. Bu situasiyada İrəvan müşahidədən artıq heç nə edə bilməz. Lakin Qarabağ münaqişəsinin həlli halında vəziyyət tam dəyişə, Azərbaycan və Türkiyə ilə əlaqələr yarana bilər" . Sayt Rusiya-Türkiyə münasibətlərinin yaxşılaşmasının da bu prosesə müsbət təsir edə biləcəyini vurğulayır. Ümumiyyətlə, bir sıra erməni ekspertləri və bəzi media orqanlarının yazdıqlarından bəlli olur ki, Ermənistanda konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçəivəsində həllini tapması artıq onlar üçün hansısa əhəmiyyət kəsb etmir. Əsas məsələ sosial-iqtisadi problemlərin çözümünü tapmasıdır.

Erməni şərhçi Romella Mnasakanyan real vəziyyətin bunu diqtə etdyini etiraf edir.

Onun sözlərinə görə, ölkədəki vəziyyətə qərəzsiz baxmaq lazımdır və belə baxanda hər şey reallığı ilə görünür: "Beynəlxalq ekspertlər 2020-ci ildə qlobal maliyyə böhranının olacağından danışırlar. Söhbət 2008-ci ildəki böhranın təkrarlanmasından gedir. Bu, Ermənistana da təsir edəcək. Ermənistanda inqilabdan sonra yeganə dəyişən şey Rusiya ilə münasibətlərin pozulmasıdır. Hərçənd, iqtisadi inqilab sözü verilmişdi. Əvəzində işsizlik, yoxsulluq və miqrasiya problemi artan xətt üzrə davam edir. Beynəlxalq investorlar bütün bu vəziyyəti yaxşı bilirlər". Erməni şərhçi qeyd edir ki, gözlənilən qlobal böhrandan çıxış yolu borc almaqdır: "Ermənistanın borca ehtiyacı var, baş nazir isə ancaq cəfəngiyyat danışır. Ölkədə hamı bilir ki, Paşinyan populistdir, buna görə onun dediklərinə fikir vermək lazım deyil. Zamanı çatanda borc verənlər real vəziyyətə baxacaqlar. Real vəziyyət isə deyilənlərin tam əksinədir. Hakimiyyətdən soruşmaq lazımdır: miqrasiya, işsizlik, yoxsulluq nə zaman bitəcək və ölkədə vətəndaşların şəxsi həyatında hiss olunacaq iqtisadi inkişaf nə zaman olacaq?!. Belə görünür ki, Qarabağ məsələsi həll olunmayana qədər Ermənistan bu problemlərin məngənəsində sıxılmaqda davam edəcək. Çünki bu münaqişə Ermənistanı bütün regional layihələrdən kənarda qoyub. Ölkədən insanlar bu səbəbdən çıxıb gedir".

Xatırladaq ki, həqiqətən də işğalçı ölkədən insanların ölkədən qaçışı davam edir.

Erməni şərhçi Tevos Arşakyan yazır ki, ölkədə yeni iş yerləri yaradılmadı və işsizliyin dərəcəsi getdikcə böyüyür, buna görə də işsizlər vətəni tərk etməyə, yaşamaq üçün başqa ölkələrə getməyə davam edirlər: "Statistika Komitəsinin məlumatlı olduqca kədərlidir. Lakin baş nazir Nikol Paşinyan bu günlərdə Parisdə UNESCO-nun qərargahında keçirilən 40-cı sessiyada "Gənclərin çoxtərəfli siyasətdə perspektivləri" mövzusunda çıxış edir. Yəqin ki, köməkçiləri bu çıxışın üzərində çox da baş sındırmayıblar, çünki Ermənistanda gənclərin heç bir perspektivi yoxdur. Statistika Komitəsinin son hesabatı buna rəsmi nümunədir. Axı ölkədən adətən kimlər gedir? İlk növbədə gənclər, çünki ölkədə ləyaqətli həyat qura bilmirlər. Hakimiyyət danışır ki, ötən il, yaxud ondan əvvəlki illərlə müqayisədə Ermənistanda iqtisadi göstəricilər artır, yeni iş yerləri yaranır. Reallıqda isə tamamilə başqa mənzərə görürük. Əlbəttə 92-93-cü illərin soyuq qışına dözən insanlar bu gün ölkəni tərk etmirlər, çünki onlar vərdiş ediblər. Amma razılaşın ki, gənclər kardinal şəkildə dəyişiblər, onlar soyuq qışda istilik olmadan keçinməyiblər və perspektiv görməyəndə özlərinə başqa ölkələrdə alternativlər axtarırlar. Onlar istəyir ki, yaxşı işləri olsun, hüquqları qorunsun, keyfiyyətli təhsil, yaxşı tibbi xidmət alsınlar. Bütün bunlar hazırda Ermənistanda mümkündürmü? Əfsus ki, xeyr". Arşakyan inqilabdan sonrakı il yarım ərzində Paşinyanın heç bir problemi həll edə bilmədiyinə diqqət çəkib: "Hakimiyyət çoxsaylı vədlər versə də, əhalinin sosial təminatsızlığı problemini həll edə bilmədi. Rəqəmlərlə sübut etmək lazımdırsa, son bir ildə ölkəni 11,7 min insanın tərk etməsinə nəzər yetirin.

Maraqlıdır ki, Nikol Paşinyan yaxın günlərdə elan etdi ki, 2019-cu ilin ikinci rübündə ölkədə işsizlərin sayı 29200 nəfər azalıb, nəticədə 207200 nəfər olub. Amma buna sevinmək gülüncdür. Çünki işsizlərin sayı yeni iş yerlərinin yaradılmasına görə yox, ölkədən gedənlərə görə azalıb. Beləliklə, rəsmi statistikada göstərilən 11,7 min insanı 29200 insana əlavə etsək, son bir ildə beyin axınını tam təsəvvür edə bilərik. Bəs bunlar nə vaxt dayanacaq? O vaxt ki, Ermənistana həqiqətən xarici sərmayələr gəlsin, ölkə regional layihələrə qoşula bilsin. Bunlar isə Qarabağ münaqişəsi həll edilmədən mümkün görünmür. Ona görə baş nazir, yaxşı olar ki, bu məsələnin həllinin tezləşməsi barədə düşünsün. Daha problemin həllini dalana dirəyəcək açıqlamalar verməsin. Sadə ermənilər üçün məsələnin hansı formada həllinin əhəmiyyəi yoxdur. Onlar sadəcə, layiqli həyat yaşamaq istəyirlər".

Ermənistan cəmiyyətindəki acınacaqlı vəziyyət orduda da hökm sürür. Rusiyanın "Yeni müdafiə sifarişi: strategiyalar" jurnalının baş redaktoru, "Jane's Intelligence" müdafiə və təhlükəsizlik məsələləri üzrə analitik mərkəzin hərbi şərhçisi Leonid Nersisyan bildirir ki, ordunun indiki halına yaxşı bələd olan ermənilər üçün Qqarabağda yeni savaş ən böyük təhdid mənbəyi kimi çıxış edir. Onun sözlərinə görə, Azərbaycan ötən dövr ərzində ordusunu əhəmiiyyətli dərəcədə inkişaf etdirsə də, Ermənistanda bunun əksi qeyd alınıb. Ekspert Azərbaycanın çoxsaylı təlimlərinin də bunun əyani təsdiqi olduğunu vurğulayır. Xatırladaq ki, noyabrın 12-dən 15-dək Azərbaycanda növbəti geniş miqyaslı təlimlər keçirilib. Bu, cari il ərzində Azərbaycanda keçirilmiş 5-ci böyük hərbi təlimdir. Nersisyan qeyd edir ki, söhbət kifayət qədər böyük operativ təlimlərdən gedir, həm aviasiya, həm də quru qoşunları bu təlimlərə cəlb olunub: "Lakin məlumatlar olduqca kasaddır, təlimlərdə iştirak edən qoşunların dəqiq sayı hələ açıqlanmayıb. Lakin hər halda hər zaman ayıq-sayıq olmaq və bu kimi bütün hərbi təlimləri bütün mümkün vasitələrlə izləmək lazımdır". Nersisyan bunu hərbi ssenarinin baş tutmasının artıq istisna olmaması ilə izah edib: "Hər halda, hərbi ssenarini istina etmək olmaz, çünki Azərbaycan bu və ya digər şəkildə silah almağa davam edir, hərbi büdcəsini getdikcə artırır, böyük orduya malikdir, özünün revanş hisslərini də gizlətmir. Beləliklə, tezliklə yeni müharibənin başlayacağını demək düzgün olmazdı, lakin digər tərəfdən, hər şey çox sürətlə, cəmi bir-iki ay içərisində dəyişə bilər. Buna görə də, Ermənistan Silahlı Qüvvələri hər zaman tam döyüş hazırlığı vəziyyətində olmalıdır. Amma təəssüf ki, vəziyyət tamam fərqlidir. Orduda ciddi problemlər hökm sürür və Paşinyan iqtidarı onları həll edə bilmədi. Gələn ilin hərbi büdcəsi də ordunun problemlərinin artmaqda davam edəcəyini göstərir". Onun sözlərinə görə, Azərbaycanın hərbi büdcə artımı həqiqətən də kifayət qədər böyükdür: "Bakının ayırdığı hərbi büdcə gələn il 3 milyard dollara yaxın olacaq. Əlbəttə, 2015-ci ilə qədər gördüyümüz rəqəmlərdən uzaqdır: həmin illərdə Azərbaycanın hərbi xərcləri 3,7 milyard dollara qədər çatırdı. Hesab etmirəm ki, möcüzə ilə hər şeyi dəyişə bilən bir silah növü var. Azərbaycan Silahlı Qüvvələri kifayət qədər mütənasib inkişaf edib, çünki aviasiya istisna olmaqla demək olar ki, bütün qoşun növləri müasir silahla silahlanıb, üstəlik kifayət qədər böyük sayda silahanmaya malikdir. Ermənistanda vəziyyət fərqlidir və buna görə mümkün savaşınnəticələrinin necə olacağını təsəvvür etmək çətin deyil. Bu səbəbdən sad əermənilər yeni itkilərdənsə, danışıqlar yolu ilə Qarabağ məsələsinin çözümünü tələb edirlər. Bu zaman Qarabağın kimin nəzarətində olacağı daha onları əvvəlki kimi dərindən maraqlandırmır". Bütün bunlar, əslində Qarabağ məsələsində erməni cəmiyyətində reallıq hissinin tədricən üstün gəlməkdə olduğunu göstərir. Sadəcə, indi əsas məsələ ölkə hakimiyyətinin də adekvat reaksiya sərgiləyib Azərbaycanın ərazi bütövlüyünün pozulmasına son verməsidir. Çünki bunsuz Ermənistanın hansısa inkişafı mümkün deyil. Belə vəziyyətdən isə artıq ermənilərin özlərinin də narazılığının artıdığı aydın müşahidə olunmaqdadır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Artıq bir neçə gündür ki, ölkənin gündəmini müxalif dairələrin adının hallandığı saxta mühacir biznesi mövzusu zəbt edib. Bu mövzu əvvəllər də gündəmə gətirilsə də, Almaniya polisinin həyata keçirdiyi əməliyyatdan sonra daha da aktuallaşıb. Son proseslərdə daha çox Müsavat Partiyasının adı hallanır.**



# Almaniyada mühacir alveri şəbəkəsində Azərbaycanın üç siyasi təşkilatının adı daha çox keçir...

## *Mehman Muradlı: "Kommunikasiyaya keçib, bəzi məlumatları onlardan əldə etmək olar"*

Ancaq gedən müzakirələrdən görünür ki, bu məsələdə başqa müxalif təşkilatlar da təqsirsiz deyillər. Xatırladaq ki, mühacir alveri ilə məşğul olduğu bildirilən bu şəbəkə Azərbaycandan vətəndaşları aldadaraq pul müqabilində onlara saxta sənədlər, arayışlar verib, habelə onların müxtəlif ölkələrdə yerləşdirilməsinə şərait yaradıb. Uzun müddət mühacir biznesini araşdıran, hazırda Avropada yaşayan jurnalist Xəqani Əliyev son müsahibəsində maraqlı faktlar açıqlayıb: "Mən qaçqın düşərgələrində ən çox NİDA təşkilatının adından gələn şəxsləri gördüm. Sonradan məlum oldu ki, şəbəkədə bu təşkilatın saxta möhürü var. Gəncləri miqrasiya xidmətinə, əsasən NİDA-çı kimi təqdim edirdilər. Siyasi partiyalardan isə ən çox rast gəldiyim Vətəndaş Həmrəyliyi (VHP) və Müsavat partiyalarının adları idi. Hətta VHP-nin adından o qədər müraciət vardı ki, Almaniya Miqrasiya Xidmətinin əməkdaşları bu partiyanı Azərbaycanda ən çox basqılara məruz qalan siyasi təşkilat hesab edirdilər. Müraciət edənlərin bəziləri piketlərdə, mitinqlərdə fotolar çəkdirmişdilər. Çox polis əməkdaşları ilə təmas halında olan fotolara üstünlük verirdilər. Amma sonralar artıq Almaniya miqrasiya idarələrində buna əhəmiyyət vermirdilər".

Göründüyü kimi, hətta müxalif mövqeli insanlar da mühacir alverində yalnız Müsavatın deyil, digər qurumların da adının daha çox hallandığını qeyd edirlər. Bu xüsusda daha çox 3 müxalif qurumun adı hallanır. Söhbət sənəd saxtalaşdırılması kimi cinayətdən gedirsə, Azərbaycan hüquq-mühafizə orqanları həmin partyalarla bağlı burda araşdırmalara başlaya bilərmi və Almaniya polisinin belə tələblə buranın güc qurumlarına müraciət etmək hüququ varmı? Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burda işi yalnız partiyalarla məhdudlaşdırmaq olmaz: "Hesab edirəm ki, Azərbaycan hüquq-mühafizə orqanları bu transmilli cinayətkar şəbəkəni kökündən araşdırmalıdır. Belə saxta sənədləri bir çox QHT-lər də verib. Xüsusilə də fəaliyyəti dayandırılan QHT-lər şəxslərə sənədlər verirlər ki, güya onlar ölkədə təqib edilir. Məhz sizin dediyiniz jurnalistin müsahibəsində media adından istifadə edənlərlə də bağlı maraqlı məqam var. Qeyd edir ki, Almaniyanın bir əyalətində sığınacaq almaq istəyən 35 "jurnalistə" rast gəlib. Yadınızdadırsa, biz iki dəfə sizin qəzetdə bu məsələyə toxunmuşuq. Hələ xeyli müddət əvvəl hüquq-mühafizə orqanlarının belə bir araşdırma aparmalı olduğunun zəruriliyini qeyd etmişdik. Burada dərc edilən məlumatlarda konkret faktlar ortaya qoyulurdu, ictimailəşdirilirdi. Həmin vaxt ölkənin daxilində sözügedən qurumlara qarşı cinayət işi başlanmalıydı. Sənəd saxtakarlığı korrupsiya cinayətinə aiddir. Yəni ilkin cinayət işinin başlanması üçün kifayət qədər əsas olub. Almaniya polisinin hərəkətlərindən sonra isə bunu etmək zərurəti bir daha ortaya çıxıb. Hesab edirəm ki, hazırda Azərbaycan hüquq-mühafizə orqanlarının əlində daha ciddi əsaslar var. Əvvəl bunu hətta qanuni əsaslarla etsəydilər belə, daxildəki qüvvələr bunu tam siyasiləşdirməyə çalışacaqdı. Çünki mövzu siyasi qurumları əhatə edəcəkdi. Almaniya ilə bizim aramızda hüquqi yardımla bağlı müqavilə yoxdur. Buna baxmayaraq , kommunikasiyaya keçib, bəzi məlumatları onlardan əldə etmək olar.

*"Deyilən 3 qurumla da bağlı sənədlər təqdim edilsə, cinayət işinin açılması mümkündür"*

Güman edirəm ki, bu müraciəti etmək zərurəti Almaniyada yaranacaq. Çünki onların apardıqları cinayət işinin bir qolu konkret olaraq bura gəlib çıxır. Deyilən 3 qurumla bağlı sənədlər təqdim edilsə, cinayət işinin açılması mümkündür".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Almaniya Azərbaycanlıları Alyansı bir qrup azərbaycanlının deportasiya edilməsi ilə bağlı bəyanat yayıb. Alyans bu bəyanatla Almaniya Federativ Respublikasında (AFR) yaşayan soydaşlarımıza müraciət edib. Bəyanatda deyilir: "Bəzi vətəndaşlarımız müxtəlif işbazlar tərəfindən aldadılır.**



# Almaniyada müsavatçı insan alverçilərinin sığınacaq axtaran soydaşlarımıza sadist davranışları - insanlığın itdiyi biznes...

## *Arzuman Abdulkərimov: "Vətəndaşlarımızı aldadıb, onlara qərib ölkədə müəyyən əziyyət verənlər sərt şəkildə cəzalandırılmalıdır"*

Müşahidələrimizə əsasən, son zamanlar müxtəlif yollarla Almaniyaya gələn və ya müxtəlif işbazlar (mühacir alverçiləri) tərəfindən aldadılaraq buraya gətirilən bəzi soydaşlarımız Almaniyada oturum hüququ əldə etmək və deportasiyadan yayınmaq üçün həmin dələduzlar tərəfindən yüksək dozalı dərman preparatları qəbul etməyə, özlərinə kəsici alətlərlə xəsarət yetirməyə və ya digər bu kimi qeyri-insani addımlar atmağa sövq edilirlər. Bütün bunlar aydındır ki, həmin dələduzların mühacirlərdən müxtəlif yollarla oturum üçün aldıqları vəsaitləri geri ödəməmək və qeyri-müəyyən müddətə vaxt qazanmaları üçün edilir. Hər kəs bilməlidir ki, Almaniyada qalmaq üçün bu kimi Azərbaycan vətəndaşına yaraşmayan qeyri-insani addımların AFR-də oturum hüququnun əldə edilməsi prosesinə heç bir faydası yoxdur və bu hallar yolverilməzdir. Almaniya qanunvericiliyinə əsasən, bu kimi hallar presedent ola bilməz. Özlərinə xəsarət yetirən həmvətənlərin müvafiq tibbi müayinədən sonra dərhal deport edildikləri müşahidə olunur. Ümid edirik ki, Almaniya və Azərbaycan hüquq-mühafizə orqanları həmvətənlərimizi bu hərəkətlərə sövq edən cinayətkarların layiqli cəza almalarını təmin edəcək".

Siyasi məsələlər üzrə ekspert Arzuman Abdulkərimov məsələ ilə bağlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Almaniya Federativ Respublikasının polisi həmin ölkədə yaşayan bir qrup azərbaycanlıya qarşı xüsusi əməliyyat keçirib. Əməliyyat nəticəsində Almaniyada məskunlaşıb mühacir biznesi ilə məşğul olan azərbaycanlılar saxlanılıb. Və onlar haqqında cinayət işi açılıb: "Uzun zamandır ki, biz bu məsələni gündəmə gətirirdik. Almaniya polisinin keçirdiyi reyd nəticəsinə mühacir biznesi ilə məşğul olanlar ictimaiyyətə məlum oldu. Məlumat üçün bildirim ki, Azərbaycandan gedən siyasi mühacirlərin əksəriyyəti siyasi proseslərin iştirakçısı olmayıb. Sadəcə olaraq, onlar siyasi partiyalardan saxta arayış almaqla Almaniyaya gediblər və Almaniyada "fırıldaqçıların" əlinə düşüblər. Hətta vəziyyət o qədər çətin olub ki, onlar mühacirlərə müxtəlif formada təzyiqlər göstəriblər. Onlara psixotrop maddələr verərək başlarına olmazın hadisələr gətirilib. Həmin insanlar burdan gedərkən bahalı əşyalarını satıblar. Gedərkən onlara "ağ həyat" vəd ediblər. Lakin gedən proseslər göstərib ki, qərib ölkələr yaşamaq üçün uyğun olmayıb. Sonda o insanlar yenidən Azərbaycana sığınıblar. Hesab edirəm ki, vətəndaşlarımızı aldadıb, onlara qərib ölkədə müəyyən əziyyət verənlər sərt şəkildə cəzalandırılacaq".

*"Mühacir alveri də insan alverinin bir formasıdır, bu işlə məşğul olanlar beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır"*

**Həmsöhbətimiz onu da vurğuladı ki, mühacir alveri də insan alverinin bir formasıdır. Bu işlə məşğul olanlar beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır. Həmin şəxslər də məsuliyyətə cəlb olunacaq. Yaxşı olar ki, hadisədə adı hallanan Müsavat Partiyasının rəhbərliyi xalq qarşısında özlərinin günahkar olduqlarını etiraf etsin.**

***Günel CƏLİLOVA***

# Naxçıvanın özünü taxılla təmin edə bilməsindən çıxan məntiqi sual - Azərbaycanın başqa bölgələri də bunu əldə edə bilərmi...

**Məlum olduğu kimi, noyabrın 18-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edib. Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev Muxtar Respublikada bir sıra sahələr üzrə vəziyyətə toxunub, eyni zamanda, taxılçılığın yüksək səviyyədə inkişafından danışıb.**

*"...respublikanın torpaq, iqlim şəraitinə uyğun sortlar yetişdirilmirsə..."*

**Vahid Məhərrəmov:** *"Bu gün Azərbaycanın digər bölgələrinin də özünü taxılla tam təmin etməsi, idxaldan asılı olmaması üçün bütün resurslar var"*



"...Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılmışdır" -deyə ölkə başçısı qeyd edib.

Naxçıvan özünü yüz faiz taxılla təmin etdiyi halda, Azərbaycanın digər bölgələrində niyə bu proses getmir? Onlar xarici ölkələrdən idxal edilən taxıl hesabına un və un məhsullarına olan tələbatlarını ödəyirlər. Taxılçılığın ölkəmizin digər bölgələrində də inkişaf etməsi nə dərəcədə mümkündür?

Qeyd edək ki, Azərbaycana taxıl əsasən xarici ölkələrdən idxal olunur.

Kənd təsərrüfatı üzrə tanınmış mütəxəssis Vahid Məhərrəmov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın digər bölgələrində də taxılçılığın inkişafı üçün münbit şərait var. O hesab edir ki, bu sahədə olan resurslardan istifadə etməklə Azərbaycanın xaricdən taxıl almasının həcmini azaltmaq tam mümkündür. "Ümumiyyətlə, Azərbaycanın özünün taxıl məhsullarına tələbatını ödəmək üçün heç bir problemi yoxdur, ölkəmizin kifayət qədər həm maliyyə, həm əmək, həm su, həm də digər resursları var. Bundan əlavə, çoxlu sayda kənd təsərrüfatı texnikası alınaraq ölkəmizə gətirilib, gübrə problemi yoxdur. Yəni bütün istehsal vasitələri, demək olar ki, əldə olunub. Bu gün Azərbaycanın digər bölgələrinin də özünü taxılla tam təmin etməsi, idxaldan asılı olmaması üçün bütün resurslar var, sadəcə, göstərilən sahədə idarəetmənin düzgün qurulmaması bu prosesin gerçəkləşməsinə mane olur.

Bu gün məhsuldarlıq aşağıdır. Bilirsiniz ki, əkin sahələrinin 60-65 faizində taxıl əkilir. Təxminən 1 milyon hektara yaxın ərazi taxıl əkini üçün istifadə olunur. Bu qədər ərazi taxılçılıq üçün istifadə edildiyi halda, necə olur ki, biz idxaldan asılı vəziyyətdə qalırıq? Dediyim kimi, problem yalnız işin təşkilindədir. Builki statistik göstəriciyə baxaq. Kənd təsərrüfatı naziri deyib ki, ötən ilə nisbətən bu il 200 min tondan artıq taxıl istehsal olunub, keçən il əvvəlki illə müqayisədə 350 min ton taxıl istehsal edilib. İstehsal artmır. Yalnız son üç ayda ölkəyə 700 min tondan artıq buğda idxal olunub. Bu o deməkdir ki, rəqəmləri yerlərdə şişirdirlər. Bölgələrdə aqrar inkişaf mərkəzləri yaradılıb, bu qurumun işi ancaq ondan ibarətdir ki, rəqəmlərlə istehsalatda inkişaf olduğunu göstərsinlər, mövcud problemi ört-basdır etsinlər. Ölkədə istehsal artıbsa, onda idxal artmamalıdır" - deyə V.Məhərrəmov qeyd etdi.

O, həmçinin, bildirdi ki, ölkədə yeni növ buğda sortlarının da yetişdirilməsində ciddi problemlər var. Onun sözlərinə görə, bu sahə tamamilə sıradan çıxarılıb. "Bizdə bu vacib sahə sıradan çıxarılıb. Bu istiqamətdə görülən cüzi işlər isə toxumçuluğun artmasına elə də təsir etmir, cəmi bir faiz təşkil edir. Ölkədə respublikanın torpaq, iqlim şəraitinə uyğun sortlar yetişdirilmirsə, bu sahə inkişaf edə bilməz. Digər tərəfdən, bu sahədə ciddi problemlərdən biri maarifçilik işinin zəif olmasıdır. Yəni fermerlər bilməlidirlər ki, məhsuldarlığın artırılması üçün hansı yollardan istifadə etsinlər. Bu il bir neçə rayonda oldum və müşahidə etdim ki, taxılçılıqda yabanı vələmir geniş yayılıb, bu da inkişafa mane olur" - deyə V.Məhərrəmov bildirdi.

*İradə SARIYEVA*

# Naxçıvanın enerji təhlükəsizliyi güvənli həddə - elektrik ixracatçısına necə çevrildi...

**"Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir.**

**Elşad Məmmədov:** *"Enerjinin ixrac olunması ölkəyə valyuta daxilolmalarının daha yüksələn dinamika üzrə reallaşdırılması baxımından önəmlidir"*



Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə mümkün deyildi, bu gün reallıqdır. Şadam ki, bərpa olunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində, prinsip etibarilə, Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpa olunan enerji hesabına qarşılayacaqdır".

Bunu Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən deyib.

Blokadada olan Naxçıvan özünü işıqla təmin etməklə yanaşı, elektrik ixrac edir. Naxçıvanın elektriki ixrac etməsi nə qədər əhəmiyyətlidir?

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Elşad Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda həyata keçirilən islahatların mühüm komponentlərindən biri daxili bazarın təmin olunmasıdır. Enerji təchizatı baxımından qeyd olunan sferada ciddi islahatların aparılması zəruridir: "Azərbaycanın elektrik enerjisi ixracatçısına çevrilməsi ölkənin xarici ticarərinə müsbət təsir göstərməkdədir. Bu elə bir sahədir ki, həm makroiqtisadi göstəricilərin sabitləşməsinə nail ola bilərik, həmçinin, bu məsələ ölkənin milli təhlükəsizliyi baxımından prioritet sayılır. O cümlədən, Naxçıvan Muxtar Respublikasının enerji ixracatçısına çevrilməsi daxili bazarın təminatı ilə bağlı problemin həll olunması deməkdir. Eyni zamanda, enerjinin ixrac olunması ölkəyə valyuta daxilolmalarının daha yüksələn dinamika üzrə reallaşdırılması baxımından önəmlidir".

*"...daxili bazarın təminatı ilə bağlı problemin həll olunması deməkdir"*

**Həmsöhbətimiz hesab edir ki, enerji istehsalına yatırılan investisiyalar müsbət nəticələrini büruzə verməkdədir. Gələcəkdə elektrik enerjisi ixracının daha da artması gözlənir.**

*Günel CƏLİLOVA*

# Azərbaycanın hərbi məktəblərində təhsil alan əcnəbilərin sayı artır

## Şair Ramaldanov: "...yüksək peşəkarlıq səviyyəsinə malik kadrların hazırlanmasında ölkəmizin təcrübəsi var"

**Vaxtilə azərbaycanlı gənclər ali hərbi təhsil almaq üçün ölkəmizdən kənarlara üz tuturdularsa, bu gün hərbi təhsil üçün Azərbaycanı seçənlərin sayı get-gedə artır. Son illər Azərbaycanda hərbi təhsil sistemində baş verən böyük inkişaf xariciləri bura cəlb edir.**

1939-cu ildə əsası qoyulan Azərbaycan Ali Hərbi Məktəbində yaradılan infrastruktur təhsil prosesinin müasir standartlara uyğun şəraitdə təşkilinə imkan yaradıb. Müdafiə Nazirliyindən mətbuata verilən məlumata görə, hazırda ali təhsil ocağının 4 fakültəsinin 21 kafedrasında 23 hərbi ixtisas üzrə zabitlər hazırlanır.

Təhsil ocağının daxilində hazırda 10-dan çox müxtəlif ixtisaslı məktəbin fəaliyyəti cəmləşdirilib. Təhsil müəssisəsində yaradılan müasir tədris şəraiti ali məktəbdə yerli kursantlarla yanaşı, xarici dövlətlərdən olan kursantların da yüksək səviyyədə hərbi təhsil almasına əlverişli imkan yaradıb.

Son illər hərbi məktəb bir çox xarici dövlətin hərbi təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində ciddi addımlar atıb. Məhz bu əlaqələrin nəticəsidir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xarici dövlətlərdən, xüsusilə Qırğızıstan, Tacikistan və Əfqanıstandan olan kursantlar təhsil alırlar. Həmin ölkələrin kursantları yerli kursantlarla bərabər nəzəri və praktiki dərslərdə hərbi biliklər qazanırlar. O cümlədən, onlar simulyator zallarında atışların həyata keçirilməsi, artilleriya, aviasiya vasitələrinin və zirehli texnikanın, eyni zamanda, döyüş əməliyyatlarının idarə olunması kimi vərdişlərə yiyələnirlər.

Qeyd edilənə görə, Ali Hərbi Məktəbdə kursantların elektron və kompyuter siniflərində hərb elminin son nailiyyətləri ilə tanış olması, idman zallarında fiziki hazırlıqlarının artırılması və asudə vaxtlarının səmərəli təşkili üçün də lazımi şərait yaradılıb.

Artıq Qazaxıstan və Özbəkistan da öz kursantlarının Azərbaycan Ali Hərbi Məktəbində gələcəyin yüksək ixtisaslı zabitləri kimi yetişməsi üçün müraciət ediblər.

Onu da bildirək ki, hərbi təhsil sahəsindəki əməkdaşlıq çərçivəsində bu gün, eyni zamanda, azərbaycanlı kursantlar da dünyanın bir çox dövlətinin nüfuzlu ali hərbi məktəblərində təhsil alırlar. Bu əməkdaşlıq prosesi isə yalnız bir məqsədə - peşəkar zabit kadrlarının hazırlanmasına xidmət edir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının təlim-tədris hissəsinin sabiq rəisi və akademiyanın sabiq rəis müavini, ASQ-nin ehtiyatda olan polkovniki, tanınmış hərbi ekspert Şair Ramaldanov bizimlə söhbətində bildirdi ki, artıq Azərbaycan hərbi təhsil sahəsində və zabit hazırlığlı istiqamətində böyük uğurlar əldə edib. "Bilirsiniz ki, Azərbaycan çox ölkə ilə hərbi sahədə əməkdaşlıq edir və həmin əməkdaşlıq çərçivəsində də bizə hərbi ali təhsillə bağlı müraciət edən ölkələr var. Həmin xarici ölkələr öz hərbi kadrlarını Azərbaycanın ali məktəbində yetişdirmək istəyirlər. O ki, qaldı son zamanlar bu sahədə edilən müraciətlərə, artıq Pakistan və Əfqanıstan da Azərbaycana müraciət edib. Artıq Əfqanıstandan olan namizədlər gəliblər, Pakistandan olanlar isə gəlmək üzrədir. Bu iki dövlət də peşəkar zabit hazırlığını məhz Azərbaycanın Ali Hərbi Məktəbinə etibar ediblər, onlar bu ali məktəbə üstünlük veriblər. Azərbaycanın Ali Hərbi Məktəbində yüksək peşəkarlıq səviyyəsinə malik zabit kadrları yetişdirmək üçün böyük şərait, potensial var. Amma hərbi sahədə əməkdaşlıq əlaqələri olmasa, bunlar da baş verməz. Bu proses əməkdaşlıq çərçivəsində baş verir. Xarici ölkələrlə Azərbaycan arasında hərbi əməkdaşlıq sahəsində olan müqavilədə kadr hazırlığı ilə bağlı ayrıca bənd var. Buna əsasən də kadr hazırlığı həyata keçirilir".



**"Həmin xarici ölkələr öz hərbi kadrlarını Azərbaycanın ali məktəbində yetişdirmək istəyirlər"**

Ş.Ramaldanov qeyd etdi ki, bu gün Azərbaycan hərbçiləri beynəlxalq hərbi yarışlarda üstünlük əldə edir və finala yüksəlirlər. Bunun Azərbaycanın hərbi təhsilinin güclü olmasının nəticəsi olduğunu deyən Ş.Ramaldanov hesab edir ki, Azərbaycan artıq peşəkar hərbçi kadrlar yetişdirməyə qadir ölkə kimi tanınmağa başlayıb. "Bu sahədə kadr hazırlığı üçün Azərbaycanın geniş imkanları var və xarici ölkələrdən də müraciətlər getdikcə çoxalır, bizim Ali Hərbi Məktəbdə oxumaq istəyənlərin sayı çoxdur. Ona görə də bu gün Ali Hərbi Məktəbdə olan maddi-texniki baza, müasir tələblərə cavab verən şərait, döyüş təcrübəsi olan peşəkar müəllimlərin burada dərs keçməsi çox əhəmiyyətlidir. Azərbaycanda verilən hərbi təhsil digər ölkələr tərəfindən də izlənir, öyrənilir. Bilirsiniz ki, ölkəmizdə xarici dövlətlərin hərbi attaşelikləri var. Əlbəttə, onlar Azərbaycandakı hərbi təhsilin səviyyəsi ilə bağlı məlumatları toplayır və ölkəmizdə yüksək peşəkarlıq tələblərinə cavab verən hərbi kadr hazırlığı potensialının olduğu barədə öz ölkələrinə məlumat verirlər. Azərbaycan Silahlı Qüvvələri ən nüfuzlu beynəlxalq qurumların təqdim etdiyi statistikda dünyanın 50 ən güclü orduları sırasındadır. Ölkəmiz 50 ən güclü ordu sırasında yalnız hərbi texnikası, texniki təminatı, silah-sursatı ilə deyil, həm də o texnikanı idarə edən peşəkar heyətilə seçilir. Bu gün həmin o peşəkar hərbi heyəti Azərbaycan Ali Hərbi Məktəbinin özü hazırlayıb. Demək olar ki, burada bütün sahələr üzrə mütəxəssislər hazırlanır. Əlbəttə, bu gün Azərbaycanın inkişafı hərbi təhsil verən məktəblərin də inkişafı deməkdir, bu hamısı kompleks şəkildə imkan verir ki, yüksək ixtisaslı, peşəkar heyət hazırlansın. Bu baxımdan, xarici ölkələrin hərbi sahədə kadr hazırlığı ilə bağlı Azərbaycana müraciət etməsi təbii haldır, çünki yüksək peşəkarlıq səviyyəsinə malik kadrların hazırlanmasında ölkəmizin təcrübəsi var" - deyə Ş.Ramaldanov vurğuladı.

*İradə SARIYEVA*

# 100-150 il əvvəl ölkədən getmiş məşhur azərbaycanlıların övladları yenidən Azərbaycana qayıdır

**Azərbaycanı ürəkdən sevən, onu müstəqil bir dövlət kimi görmək istəyən bir sıra böyük şəxsiyyətlərimiz, dövlət, mədəniyyət xadimlərimiz, milyonçularımız var ki, onların və övladlarının taleyi mühacirətə yazılıb. Vaxtilə mühacirət etdikləri ölkələrdə həmin şəxsiyyətlərin davamçıları yaşayırlar.**

***Buludxan Xəlilov:** ”Görkəmli şəxsiyyətlərimizin xaricdə yaşayan nəvə-nəticələrinin ölkəmizə dəvət edilməsi azərbaycançılıq ideologiyasının bərqərar olunmasında mühüm rol oynayır”*

Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizin görkəmli şəxsiyyətlərinin davamçıları ilə əlaqələr qurulmağa başladı.

Dövlətimiz 100-150 il bundan əvvəl müəyyən səbəblərdən ölkəmizdən gedən görkəmli azərbaycanlıların ailəsi, nəvə-nəticələri ilə əlaqələr yaradır, onları ölkəmizə dəvət edir. İndiyə qədər bir sıra görkəmli şəxsiyyətlərin xaricdə yaşayan övladları, nəvə və nəticələrinin ölkəmizə gəlməsi təmin edilib.

Qeyd edək ki, bir müddət əvvəl Azərbaycanın beynəlxalq aləmdə müstəqil dövlət kimi tanınmasında böyük xidmətləri olmuş şəxsiyyətlərdən biri - Ceyhun Hacıbəylinin Parisdə yaşayan varisləri - oğlu Timurçinin həyat yoldaşı Paskal Hacıbəyli Buşe və oğlu Benjamin Hacıbəyli Bakıya gəldilər. Hacıbəylinin varisləri Bakıya Diasporla İş üzrə Dövlət Komitəsinin Cümhuriyyətin 100 illiyi ilə bağlı həyata keçirdiyi tədbirlər çərçivəsində gəlmişdilər. C.Hacıbəylinin varislərindən sonra isə görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Fransada yaşayan nəticəsi Alban Klod Bakıya gəldi. Məşhur milyonçunun ikinci oğlu Sadıxın nəvəsi olan A.Klod ilk dəfədir Azərbaycana səfər etmişdi.

Bu günlərdə isə görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Cəlil Məmmədquluzadənin nəticəsi Martin Cavanşiri və onun oğlu Pşemislav Cavanşiri ilk dəfə Azərbaycana gəliblər. Fəxri Xiyabanda babaları C.Məmmədquluzadənin və nənələri Həmidə Cavanşirinin məzarını ziyarət edən varislər C.Məmmədquluzadənin ev muzeyinin təmirdən sonra açılışında iştirak ediblər.

Ekspertlər qeyd edirlər ki, dahi şəxsiyyətlərin şəcərəsinin nümayəndələrinin Azərbaycana gəlməsi, doğma vətəni görməsi olduqca müsbət hal olmaqla yanaşı, həm də bir mənəvi məsələdir.

Azərbaycan dövləti görkəmli şəxsiyyətlərin şəcərə nümayəndələrini vətənə dəvət etməklə milli-mənəvi dəyərlər sistemində yeni müsbət ənənənin meydana gəlməsinə şərait yaradır. Ekspertlər hesab edirlər ki, bu addım azərbaycançılıq məfkurəsinin, ideologiyasının təbliği baxımından da çox əhəmiyyətlidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, əsası son illər qoyulan bu ənənənin böyük mənəvi, tarixi əhəmiyyəti var. "Azərbaycan müstəqillik əldə etdikdən sonra, xüsusən də son dövrlər mühacirətdə yaşamış, burada ölkəmiz üçün faydalı işlər görmüş görkəmli şəxsiyyətlərin nəvə-nəticələrinin Azərbaycanla əlaqələrinin qurulması çox müsbət haldır. Əvvəla ona görə ki, biz onlar vasitəsilə də xaricdəki diaspor qurumlarımızın fəaliyyətini genişləndirə və gücləndirə bilərik. Müxtəlif xarici ölkələrdə yaşayan bu insanlar Azərbaycanın çox gözəl təbliğatçısı ola bilərlər. Azərbaycan dövləti görkəmli şəxsiyyətlərimizin davamçılarının ölkəmizə gəlməsi, vətənimizi daha yaxından tanıması üçün böyük şərait yaradır. Onlar bura gələrkən həm babalarının mənəvi irsi ilə yaxından tanış olur, onun vasitəsilə də, bütövlükdə, Azərbaycanı daha yaxından tanıyır, mədəniyyəti, ədəbiyyatı, mənəvi dəyərlərini öyrənirlər. Böyük şəxsiyyətlərin xaricdə yaşayan nəvə-nəticələrinin axtarılıb tapılması, onlarla əlaqələr qurulması, vətənə dəvət edilməsi ənənəsinin formalaşdırılması çox müsbət göstəricidir".

B.Xəlilov hesab edir ki, mühacirətdə yaşayan digər görkəmli şəxsiyyətlərin də nəvə-nəticələrinin axtarışına başlanmalı və onlarla da əlaqələr yaradılmalıdır. "Bilirsiniz ki, bizim digər böyük şəxsiyyətlərimiz də var ki, onların da nəvə-nəticələri axtarılmalı, ölkəmizə dəvət edilməlidir. Mən çox məmnun oldum ki, böyük ədibimiz Cəlil Məmmədquluzadənin şəcərəsinin davamçıları Azərbaycana gəlib. Cəlil Məmmədquluzadənin nəticəsi dedi ki, mən indiyə qədər bilmirdim, babamı Azərbaycanda bu cür tanıyır və sevirlər, onun belə zəngin mənəvi irsi var, bu mənəvi irsi gördüm, qürur hissi duydum. Cəlil Məmmədquluzadənin də, digər dahi şəxsiyyətlərin də nəvə-nəticələri Azərbaycandan uzaqda yaşayırlar, onları və başqalarını da Azərbaycana bağlamaq lazımdır. Bilirsiniz ki, onlarla əlaqə qurmağa uzun illər Sovet imperiyası imkan verməyib, onlar bizdən uzaq salınıb, qohumları ilə əlaqələri kəsilib. Bu gün Azərbaycanın müstəqilliyi bizə şans verib ki, onlarla əlaqələr yaradaq".

B.Xəlilov qeyd etdi ki, C.Məmmədquluzadənin şəcərə davamçılarını Bakıya AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli dəvət edib. Müsahibimiz bildirdi ki, vaxtilə o, C.Məmmədquluzadənin nəticəsinin xaricdə yaşadığını deyirdi. "İsa müəllimin bu addımı alqışalayiqdir.

**Sevindirici haldır ki, görkəmli şəxsiyyətlərin irsini öyrənən alimlər həm də onların şəcərəsini axtarıb tapır və onları Azərbaycana gətirirlər. Görkəmli şəxsiyyətlərimizin xaricdə yaşayan nəvə-nəticələrinin ölkəmizə dəvət edilməsi azərbaycançılıq ideologiyasının bərqərar olunmasında mühüm rol oynayır və bunu uğurlu dövlət siyasəti hesab edirəm, bu siyasəti alqışlayıram" - deyə B.Xəlilov qeyd etdi.**



*”...bu insanlar Azərbaycanın çox gözəl təbliğatçısı ola bilərlər”*

***İradə SARIYEVA***

# Naxçıvanın büdcəsində yerli gəlirləri artırmaq mümkündürmü?

## *Rəşad Həsənov: "Naxçıvanda ixracyönümlü istehsalın formalaşdırılması imkanları böyükdür"*

**"Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir". Bunu Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edərkən deyib.**



Ölkə başçısının sözlərinə görə, ötən il Naxçıvan büdcəsinin gəlirləri təqribən 400 milyon manata yaxın idi: "İndi növbəti il üçün büdcə məsələləri müzakirə olunur. Əlbəttə ki, Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik. Ancaq bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir. Hesab edirəm növbəti illərdə yerli gəlirlərin artırılması istiqamətində işlər aparılmalıdır ki, onların faiz nisbəti artsın. Əminəm, belə olan halda daha da böyük imkanlar olacaq ki, sosial və sənaye layihələri icra edilsin".

Prezident onu da qeyd edib ki, bütün ölkədə olduğu kimi, bu gün Naxçıvanda da maliyyə və iqtisadi sahələrdə şəffaflıq tam təmin edilmələdir: "Aparılan islahatlar nəticəsində təkcə bu ilin 10 ayı ərzində büdcə gəlirləri plandan əlavə 850 milyon manat artmışdır. Ona görə gələn ilin büdcəsinə baxdıqda yerli gəlirlərin həm mütləq rəqəmlərinin artırılması, eyni zamanda, ümumi büdcədə yerli gəlirlərin faizinin artırılması üçün əlavə addımlar atılmalıdır".

O da məlumdur ki, Naxçıvan 30 ildir blokada şəraitindədir. Ermənistanın apardığı işğalçılıq siyasəti üzündən Muxtar Respublika ilə dəmir yolu əlaqəsi kəsilib. Buna baxmayaraq, son illər Naxçıvan xeyli inkişaf edib. Bölgəyə dövlət vəsaiti hesabına böyük sərmayələr qoyulub, infrastruktur yenilənib. Bir sıra layihələr həyata keçirilir. Bütün bunlarla yanaşı, Naxçıvanın potensial imkanlarından tam istifadə edilməlidir. Bu baxımdan, Naxçıvan büdcəsində yerli gəlirlərin payının artırılmasına necə nail olmaq olar?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisadçı-ekspert Rəşad Həsənov bununla bağlı bir sıra məqamlara toxundu: "Naxçıvanın anklav şəraitində olması ümumi inkişaf tempinə neqativ təsirlər göstərir. Ancaq, eyni zamanda, bölgənin geostrateji mövqeyini, iki əhəmiyyətli bazar olan İran və Türkiyə ilə sərhəd olduğunu nəzərə alsaq, Naxçıvanda ixracyönümlü istehsalın formalaşdırılması imkanları böyükdür. Bundan başqa, Naxçıvanda turizmə meylli iqtisadiyyatın inkişafı üçün baza, kifayət qədər tarixi ərazilər var. Şərq ölkələrindən, xüsusən də tarixi ənənəvi bağlılığı olan ölkələrdən turistlərin cəlb edilməsi üçün əlverişli imkanlar var. Ancaq bunun üçün bölgədə müvafiq infrastruktur formalaşdırılmalıdır. İaşə yerləşdirmə istiqamətində sahibkarlıq subyektlərinin fəaliyyəti üçün daha liberal şərait yaradılmalıdır. Naxçıvanda əsas çətinliklərdən biri orada fəaliyyət göstərən sahibkarlar üçün müəyyən qədər imkanların məhdud olmasıdır. Ona görə də buna müvafiq dövlət dəstəyinin göstərilməsinə ehtiyac var. Bununla belə, yaxşı olardı ki, bu bölgədə azad iqtisadi zona yaradılsın. Çünki coğrafi mövqeyini nəzərə alsaq, Naxçıvanda azad iqtisadi zonanın yaradılması potensialı çox yüksəkdir. Digər tərəfdən, Naxçıvanda mövcud olan təbii resurslarla bağlı sənayenin və yan klasterlərin əlaqəli sahələrinin inkişafı üçün yetərincə imkanlar var. Bu imkanların istifadəsi üçün müəyyən təşviqedici mexanizmlər hazırlana bilər.

*"Yaxşı olardı ki, bu bölgədə azad iqtisadi zona yaradılsın"*

Bu zaman emal sənayesi ilə əlaqədar məhsulların istehsalı üçün imkanlar çox genişdir. Ona görə də bu imkanlardan yararlanmaq lazımdır. Nəzərə almaq lazımdır ki, son illər Naxçıvanda infrastrukturun yenilənməsinə kifayət qədər investisiya yönəldilib. Bu investisiyanın iqtisadiyyata transformasiya olunması üçün hazırda çağırışlar var. Sahibkarlar üçün tam liberal şərait yaradılarsa, Naxçıvanda yerli gəlirlərin 2-3 dəfə artırılması mümkündür".

***Vidadi ORDAHALLI***

# 200 min Azərbaycan qadını niyə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərir...

## *Ruslan Atakişiyev: "Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar bununla bağlı öhdəliklər üçün özünün bütün əmlakı ilə..."*

**Məlum olduğu kimi, ölkədə sahibkarlıq fəaliyyəti ilə həm fiziki (fərdi), həm də hüquqi şəxs kimi məşğul olmaq mümkündür. Qanunvericiliyə əsasən, fərdi sahibkarlıq hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədilə yaratdıqları sahibkarlıq fəaliyyətinin bir növüdür.**




Hüquqi şəxs isə qanunla müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçən qurumdur.

Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan qadınların sayı 200 minə yaxındır. Bu barədə bir neçə gün öncə "Üfüqdə yeni fürsətlər: qadın sahibkarlara yaşıl işıq" adlı forumda çıxış edən Azərbaycanın İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib. O qeyd edib ki, onlardan təxminən 33%-i Bakıda, 17%-i Aranda, 16%-i Gəncə-Qazax, 10%-ə yaxını isə Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda fəaliyyət göstərir.

Maraqlıdır, hüquqi şəxs yaratmaqla-yaratmamağın bizneslə məşğul olanlar üçün nə kimi üstünlüyü var? Sahibkarlıqla məşğul olanlar niyə hüquqi şəxs yaratmırlar?

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dövlət tərəfindən sahibkarlığın inkişafına xüsusi diqqət və qayğı göstərilir. İş adamlarının beynəlxalq bazarlara çıxması üçün əlverişli imkanlar yaradılmaqdadır.

Həmsöhbətimizin sözlərinə görə, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar fiziki və ya hüquqi şəxs kimi qeydiyyatdan keçə bilərlər: "Fiziki şəxs kimi qeydiyyatdan keçənlər heç bir maneə yaşamadan fəaliyyət göstərə bilərlər. Onlar VÖEN almaqla vergi ödəyicisinə çevrilir və sərbəst şəkildə işləyirlər. Bu tip qeydiyyatdan keçənlər istədiyi sayda insanı işçi kimi götürə bilərlər. Hüquqi şəxs qismində fəaliyyət göstərənlər isə elektron şəkildə qeydiyyatdan keçməklə sahibkar kimi çalışırlar. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar bunun bağlı öhdəliklər üçün özünün bütün əmlakı ilə cavabdehdir".

*"Hüquqi şəxs qismində fəaliyyət göstərənlər isə elektron şəkildə qeydiyyatdan keçməklə sahibkar kimi çalışırlar"*

**Ekspert onu da vurğuladı ki, statistik rəqəmlərə əsasən, 200 min qadın hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Həmin xanımlar daha az vergi ödəmək üçün hüquqi şəxs yaratmayıblar.**

***Günel CƏLİLOVA***

# "AAAF Park" yaşayış kompleksinin işıqla təminatında nə problem yaranıb...

**"AAAF Park" yaşayış kompleksində yaşayan sakinlər son günlər elektrik enerjisinin verilişi ilə bağlı problemlə üzləşirlər. Sakinlər bu barədə redaksiyamıza şikayət ediblər.**

*"...istifadə etdikləri elektrik enerjisi və istiliyə görə borclarını ödəməyən, bilərəkdən ödəmək istəməyən sakinlərin..."*

Sakinlər bildirirlər ki, son günlər işıq verilişi ilə bağlı problem gün ərzində bir neçə dəfə yaşanır: "Ötən həftənin sonundan etibarən binalara işıq fasilələrlə verilir. Axşam saatlarından başlayaraq elektrik enerjisi yarım saatdan, bəzən isə 15 dəqiqədən bir verilir. Bu isə qazı və istiliyi olmayan binaların sakinlərinin problemlərini artırır".

Məsələ ilə bağlı "AAAF Park" yaşayış kompleksi ilə əlaqə saxladıq. Yaşayış kompleksindən "Bakı-Xəbər"ə verilən məlumata görə, elektrik enerjisinin fasiləsiz təminatının şirkətdən "Azərenerji" ASC-yə təhvil-təslim prosesi aparılır: "Daxili xətlər dəyişdirilir, kompleksin ərazisində olan iki transformator yenilənir. Bununla yanaşı, Xırdalanda yeni istifadəyə veriləcək yarımstansiyaya qoşulma üçün işlər bitmək üzrədir. Nəzərə almaq lazımdır ki, bu proses zamanı elektrik enerjisinin verilməsində fasilələrin olması təbiidir. Hazırda cəmi 4 binada bu problem var, o da artıq aradan qaldırılmaq üzrədir".

"AAAF Park" yaşayış kompleksindən o da bildirildi ki, problemlərin yaranmasında sakinlərin, daha doğrusu, istifadə etdikləri elektrik enerjisi və istiliyə görə borclarını ödəməyən, bilərəkdən ödəmək istəməyən sakinlərin də günahı az deyil: "İşlərin aparılması böyük vəsait tələb edir. **O şəxslər də bu vəsaiti ödəməyəndə külli miqdarda rəqəm alınır, şirkət də artıq bunun öhdəsindən gələ bilmir. Borcların ödənilməsi çətinlikləri daha tez aradan qaldırmağa kömək edəcək".**

***"AAAF Park" yaşayış kompleksi:** "Elektrik enerjisinin fasiləsiz təminatının şirkətdən "Azərenerji" ASC-yə təhvil-təslim prosesi aparıldığı üçün..."*



***Günel CƏLİLOVA***

# "Metakom" MMC-nin direktoru Şövkət Quliyevin 7 milyonluq əmlakına həbs qoyuldu



**"Metakom" Məhdud Məsuliyyətli Cəmiyyətin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işi yekunlaşıb.**

İstintaqla "Metakom" MMC-nin direktoru Şövkət Quliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək cəmiyyətin maliyyə vəziyyəti barədə bilərəkdən şişirdilmiş yalan məlumatlar göstərməklə və rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə cəmiyyətin xeyrinə QSC "Bank Standard" KB-dən 3 milyon ABŞ dolları məbləğində kredit vəsaitini rəsmiləşdirərək təyinatı üzrə istifadə etməməsinə, 2007-ci ildən əldə etdiyi pul vəsaitini qəsdən ödəməməklə bankın normal fəaliyyətinin pozulmasında ifadə olunan hüquqlarına və qanuni mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

Ş.Quliyevə Cinayət Məcəlləsinin 195.2 (qanunsuz kredit alma külli miqdarda ziyan vurduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunub və məhkəmənin qərarı ilə onun 7 milyon manat məbləğində əmlakı üzərinə həbs qoyulub.

Cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün məhkəməyə göndərilib.

***Baki-xeber.com***

# "Azercell"in rominqi millər qazandırır!




**Abunəçilərinə ən yaxşı müştəri təcrübəsi yaşatmaq üçün "Azercell Telekom" MMC öz xidmətlərini təkmilləşdirməyə və ən son dünya trendlərinə uyğun məhsullarla istifadəçilərini sevindirməyə davam edir.**

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell" Azərbaycanın aparıcı korporativ bankı olan "PAŞA Bank"la birgə reallaşdırdığı kampaniya vasitəsilə abunəçilərinə rominq xidməti çərçivəsində əlavə millər qazanmaq imkanı yaradır. Belə ki, cari ilin noyabr ayının 1-dən 2020-ci il yanvar ayının 31-dək "PAŞA Bank"ın "Miles&Smiles" kartının sahibi olan "Azercell" abunəçiləri rominq xidməti çərçivəsində mobil xərclər üzrə ödədikləri hər 1 AZN-ə görə 5 mil əldə edəcəklər.

Həmçinin, 2020-ci il yanvar ayının 31-dək "Azercell"in rominq internet paketlərindən birini aktivləşdirən abunəçilər səfər zamanı "WhatsApp" mobil tətbiqi üzərindən yazışmalardan pulsuz istifadə edə biləcəklər.

**Vurğulayaq ki, "Azercell" 54 ölkədə fəaliyyət göstərən 80-dan çox operatorun şəbəkəsində 4 fərqli rominq internet paketlərini istifadəyə verməklə, abunəçilərini gözlənilməyən xərclərdən sığortalanmaq imkanı ilə təmin etmiş olub.**

"PAŞA Bank"ın "Miles&Smiles" kartı haqqında ətraflı məlumat üçün https://miles.pashabank.az/ səhifəsinə daxil olun.

"Azercell"in rominq internet paketləri barədə ətraflı məlumatla https://www.azercell.com/az/personal/roaming/internetroaming/ səhifəsindən tanış olmaq mümkündür.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

№ 206 (4104) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

20 NOYABR 2019-cu il

www.baki-xeber.com

## Elan

Şəki rayonu, Daşüz kənd sakini İslamov Zeynəddin Salman oğlunun adına verilmiş 1/ 147 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Lamiyə Nəsir qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mustafayeva Zənifə Cavanşir qızına BDU tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Məftun Tahir oğluna Azərbaycan Dövlət Neft Şirkəti SOCAR Təhlükəsizlik İdarəsi tərəfindən verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Orucova Həvva Namiq qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Xıdırova Maya Qafar qızına Bakı şəhəri, Xətai rayonu, 63 nömrəli gecə orta məktəbi tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

04.08.2007-ci il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən vətəndaş Hüseynova (Qurbanova) Günel Firudin qızının adına verilmiş, Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, ev 17, mənzil 55 ünvanına aid 110765249 nömrəli çıxarış itirildiyindən etibarsız sayılır.

Sadıxova Təranə Rahib qızına məxsus, Bakı şəhəri, Səbail rayonu, İkinci Kiçik Qala küçəsi, ev 24, 26, 28 ünvanlarına verilmiş çıxarışlar itdiyi üçün etibarsız sayılır.

Zeynalov Emrulla Zeynal oğluna (AZ-II № 052987, ASAN 3) məxsus, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, ev №157 "A" ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əsgərli Ayan Namiq qızına Bakı şəhəri, Yasamal rayonu, Qeydiyyat şöbəsi tərəfindən verilmiş doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Həsənov Nürəddin Hüseyn oğlunun adına, Xətai rayonu, General Mehmandarov küçəsi, ev 20 B, mənzil 5 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Hüseynova (Məmmədova) Elmira Hacıbabayevaya məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Cabbarov Eldar Bahadır oğlunun adına, Sabunçu rayonu, Bilgəh Bağlar massivi, bağ № 370 ünvanının № 12200 müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Dəmirov Fəxrəddin Xaləddin oğluna məxsus, Abşeron rayonu, Məmmədli kəndində yerləşən torpaq sahəsinin reyestr № 308013118466 HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Babayeva Esmira Kamal qızına məxsus, Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, I massiv (keçmiş 7-ci döngə), Birlik küçəsində yerləşən torpaq sahəsinin HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır (AZE № 09125836, Yasamal RPİ).

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 1-ci kurs tələbəsi Kərəmov Ramiz Firdovsi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



## NASA-dan xəbərdarlıq - Yer kürəsinə 15 atom bombası gücündə cisim yaxınlaşır

**ABŞ Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) qorxunc açıqlama yayıb. "Milli.Az" xəbər verir ki, NASA alimləri hər 2000 ildə bir dəfə dünyaya hansısa asteroidin zərbə vurduğunu və hazırda belə bir asteroidin yerə çox yaxın olduğunu deyib.**

NASA "JF1" kod adı olan bu asteroidin yoluna davam edərsə, Yer kürəsinə zərbə vuracağını bildirib. Verilən açıqlamada bu hadisənin qısa müddətdə baş vermə ehtimalının olduqca yüksək olduğu vurğulanıb. Haqqında danışılan asteroidin diametrinin 128 metr olduğu qeyd edilib. 6 May 2022-ci il tarixində bu kosmik qayanın planetimizlə toqquşacağı, potensial olaraq bir şəhəri bir neçə saniyədə məhv edəcəyi və dağıdıcı nəticələrə səbəb ola biləcəyi proqnozlaşdırılıb. "JF1" kosmik qayasının təsirinin 250 kilometrlik TNT (partlayıcı kimi istifadə olunan kimyəvi maddə) ilə eyni təsir göstərəcəyi hesablanıb. Bu rəqəm Xirosimadakı atom bombasından 15 dəfə böyükdür. Qeyd edək ki, bu mövzunu diqqətdə saxlayan NASA-nın yaxın günlərdə yeni açıqlamalar verəcəyi bildirilib.

## Paslı ayaqqabıları min dollardan baha satacaqlar



**Yaponiyanın lüks Principe Priv? brendi paslanmış kimi görünən dizayner həlli olan idman ayaqqabılarını təqdim edib.**

"Sputnik Azərbaycan" bildirir ki, bu barədə "Hypebeast" yazıb. Sosial şəbəkədə yayılan şəkillərdən bunlar "sacai x Nike Blazer Mid" modelindən olan idman ayaqqabılarıdır. Dizayner daha real nəticə əldə etmək üçün bir neçə qat boyadan istifadə edib ki, deformasiya olan yerlərdə pas yığılması səmərəsi yarada bilsin. Bildirilir ki, dizaynda rənglərin uzun müddət qorunması məqsədilə akril boyalarından istifadə olunub. Ayaqqabılar artıq bu həftə satışa çıxarılacaq və bir cütünün qiyməti 121 min yen (1110 dollar) olacaq.

## 20 ildir torpaqla qidalanır

**Hindistanın sakini qəribə vərdişə yiyələnib. "Oxu.az" xəbər verir ki, Andxra-Prades ştatının sakini Nukala Koteşvara Rao 28 yaşından torpaqla qidalanır.**

"Newsflare"in məlumatında onun artıq 20 ildir torpaq yediyi bildirilir. Gündə ən azı bir kiloqram torpaq yediyini deyən Rao bu qəribə dietanın onun sağlamlığına zərrə qədər zərər vermədiyini əlavə edib.





**Qoç** - İşləmək və yaradıcılıq məsələlərinin həlli üçün pis gün deyil. Çətin məsələləri həll etməyə və rəqiblərinizi geridə qoymağa nail olacaqsınız. Kiminlə əlaqə qurub-qurmamağı sizə intuisiyanız deyəcək.



**Buğa** - Maraqlı adamlarla ünsiyyətdən zövq alacaqsınız. İşdə məhəbbət macərasının başlanması mümkündür. Təəssüf ki, nikahda olan və ya sizə ciddi yanaşmaq istəməyən adamla əlaqə də istisna deyil.



**Əkizlər** - Əkizlər onlar üçün əhəmiyyətsiz görünən məsələlərin həllində səylərini əsirgəməsələr, peşə sahəsində uğurlar qazana bilərlər. Bu gün hər bir xırdalığı diqqətələyiqdir. Rəhbər Əkizlər işçilərinin fəaliyyətini diqqətlə izləməlidirlər.



**Xərçəng** - Ətrafda baş verən hər şeyə çox kəskin reaksiya verirsiniz. Bugünkü hərəkətlərinizi düşünülmüş, qərarlarınızı isə ölçülüb-biçilmiş adlandırmaq çox çətindir. Siz insanları tez-tez küsdürür, asanlıqla özünüzə düşmən qazanırsınız.



**Şir** - Bu gün Şirlər sona çatdıra bilib-bilməyəcəklərini düşünmədən cəsarətlə yeni işlərə girişəcəklər. Cəsur eksperimentlər, avantüralar və yeni başlanğıclara meyl bürcün nümayəndələrini düşünülməmiş hərəkətlərə təhrik edə bilər.



**Qız** - Günün birinci yarısında ünsiyyət zamanı ehtiyatlı olmalısınız. Siz hər şeyə tez inanırsınız və bu səbəbdən başqalarının manipulyasiya və intriqalarının qurbanına çevrilə bilərsiniz. Vacib qərarların qəbulundan çəkinmək tövsiyə olunur.



**Tərəzi** - Sakit düşüncələr və uzunmüddətli planlaşdırmalar üçün münasib olan pis gün deyil. Dəqiqlik, səliqə və çalışqanlıq tələb edən işlərlə məşğul olmaq mümkündür. Yaradıcı məsələlərin həllində vəziyyət o qədər də yaxşı olmayacaq.



**Əqrəb** - Müsbət tendensiyaların təsiri üstünlük təşkil edəcək. İşgüzar fəallıq yüksək olacaq, peşə uğurlarına ümid etmək olar. Vəzifə artımı istisna deyil, məhsuldar əməkdaşlığın başlanması mümkündür.



**Oxatan** - Bütün çətinliklərə baxmayaraq, bu gün sakitliyinizi qoruyacaq və düz edəcəksiniz. Məhz soyuqqanlılıq və düşünülmüş addımlar atmaq ortaya çıxan bütün sualların cavabını tapmaqda sizə yardım edəcək.



**Oğlaq** - Günə ən çətin və xoşagəlməz işlərdən başlamağa hazır olan Oğlaqları tez və hərtərəfli uğur gözləyir. Vaxtınızı dünyanın ədalətli qurulub-qurulmaması ilə bağlı söhbətlər və düşüncələrə sərf etməyin.



**Dolça** - Mənfi tendensiyaların təsiri güclü olacaq. Həmkarlarınızla ciddi fikir ayrılıqları yarana bilər. Rəhbərlik sizin hərəkətlərinizi kəskin tənqid edəcək. Bu və ya digər hərəkətləri edərkən hansı motivlərə əsaslanacağınızı izah etməli olacaqsınız.



**Balıqlar** - Bu gün iş danışıqları aparmaq, nüfuzlu adamlarla, dövlət orqanlarının nümayəndələri ilə görüşmək tövsiyə olunmur. Hüquqi və təşkilati məsələlərinin həlli üçün münasib gün deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Alimlərdən buzu əritmək üçün yeni kəşf...

**İllinoys Universiteti və Kyusyu Universitetinin (Yaponiya) tədqiqatçılar qrupu tərəfindən buzun səthlər üzərindən sürətli və effektiv şəkildə əridilməsinin yeni üsulu icad edilib.**

"Trend" bildirir ki, yeni üsul 1%-dən az səmərəli sərf etməklə məsələnin öhdəsindən ənənəvi metodlardan yüz qat daha sürətli şəkildə gəlir. Yeni metod ənənəvi ərimə prosesindən fərqli olaraq üst qatdan alt qata doğru ərimə əvəzinə buzu "daxildən" əritməyi nəzərdə tutur.

Beləliklə, alt təbəqədə su əmələ gəlir və bu da öz növbəsində buz örtüyünün səth üzərindən sürüşməsinə səbəb olur. Bunun üçün alimlər buz qatının olduğu səthə güclü cərəyan impulsu tətbiq etməyi təklif ediblər.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.